Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 279 (8006) ÇƏRŞƏNBƏ AXŞAMI, 11 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik






## Bu ölkə təmsil olunduğu bütün təşkilatlarda əhəmiyyətsiz üzvə çevrilib

Beynəlxalq aləmdə və eləcə də regional müstəvidə əməkdaşlığa və təhlükəsizliyə töhfə verən nüfuzlu təşkilatların işində yaxından iştirak etmək hər bir ölkənin beynəlxalq münasibətlər sistemində oynadığı rola təsir edən vacib komponentlərdən sayılır. Azərbaycan da beynəlxalq aləmə inteqrasiya kursunu seçərək hər zaman xarici siyasətdə qlobal proseslərə əsaslı təsir imkanları olan aparıcı və nüfuzlu təşkilatlarla əməkdaşlığa daim mühüm önəm verib.

### Azərbaycan MDB-nin fəaliyyətinə mühüm töhfələr verir

Azərbaycanın üzvü olduğu və işində yaxından iştirak etdiyi təşkilatlardan biri də Müstəqil Dövlətlər Birliyidir. MDB-nin əsas məqsədləri siyasi, iqtisadi, ekoloji, humanitar, elmi, mədəni, cinayətkarlığa qarşı mübarizədə səylərin uyğunlaşdırılması və digər sahələrdə əməkdaşlıqdan ibarətdir. Azərbaycan MDB-nin işinə üzv olduğu dövrdən böyük töhfələr verib. Bu təşkilat çərçivəsində həm də mehriban qonşuluq zonası yaratmaq məqsədi güdən ölkəmizin yürütdüyü siyasi xətt regionda təhlükəsizliyin təmin olunmasına, siyasi və iqtisadi əlaqələrin güclənməsinə xidmət edir.

Ermənistanı çıxmaq şərtilə, bu gün Azərbaycanın digər MDB dövlətləri ilə çox yaxşı münasibətləri var. Bu münasibətlər həm ikitərəfli, həm də kollektiv tərəfdaşlıq formasında uğurla həyata keçirilir. Azərbaycanın MDB-nin üzvləri ilə iqtisadi əlaqələri ildən ilə artan xətt üzrə inkişaf edir, əmtəə dövriyyəsi, qarşılıqlı investisiyaların qoyulması artır. O cümlədən hüquq mühafizə, sərhədlərin mühafizəsi, cinayətkarlıqla, terrorçuluqla mübarizə sahəsində Azərbaycan ayrı-ayrı MDB dövlətləri ilə sıx əməkdaşlıq edir. MDB üzvü olan ölkələrin rəhbər şəxsləri müntəzəm görüşlər keçirir, qarşılıqlı səfərlər edirlər ki, bu da postsovet məkanında yüksək səviyyəli birgə fəaliyyətə təkan verir. Bu mənada əldə edilən ən böyük nailiyyətlərdən biri Sovet İttifaqının dağılmasından sonra ölkələr arasında münasibətlərin qorunub saxlanılmasıdır.

### Xüsusi ehtiramın nümunəsi

Dekabrın 6-da Rusiyanın şimal paytaxtı Sankt-Peterburqda dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısı keçirildi. Toplantıda Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Prezident İlham Əliyev də iştirak etdi. Belə toplantılarda MDB çərçivəsində il ərzində görülən işlər barəsində fikir mübadiləsi aparılır və gələcək fəaliyyət istiqamətləri ətraflı müzakirə olunur. Sankt-Peterburq toplantısında da dövlət başçıları bu qəbildən olan məsələləri müzakirə etdilər. Ümumilikdə, dövlət başçılarının Sankt-Peterburqdakı qeyri-rəsmi görüşü olduqca işgüzar və səmimi şəraitdə keçirildi. Dövlət başçıları birlikdə nahar etdilər və sonra Mariinskiy Teatrda "Şelkunçik" balet tamaşasına baxdılar.

Öncə onu qeyd edək ki, bu qeyri-rəsmi görüş bir daha MDB dövlət başçılarının nüfuzunu və onlara göstərilən ehtiramı ortaya qoydu. Məsələn, balet tamaşasında Azərbaycan Prezidenti İlham Əliyev tədbirə ev sahibliyi edən Rusiya Prezidenti Vladimir Putinin yanında sağda əyləşmişdi. Bu, Azərbaycan Prezidentinə və onun şəxsiyyətinə Rusiyanın dövlət başçısının xüsusi hörmətinin və ehtiramının nümunəsi idi. Vladimir Putindən solda Belarus Prezidenti Aleksandr Lukaşenko, Prezident İlham Əliyevin sağında isə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev əyləşmişdi. Bu prezidentlərin MDB dövlət başçıları arasındakı nüfuzlarını ayrıca qeyd etməyə ehtiyac yoxdur. Üstəlik hər ikisi Azərbaycanın və Prezident İlham Əliyevin dostudur.

### Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi diqqət mərkəzindədir

Dövlət başçılarının qeyri-rəsmi görüşü çərçivəsində İlham Əliyevin Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyanla da söhbəti olub. Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə fəal danışıqların davam etdirilməsi və atəşkəs rejiminin möhkəmləndirilməsi ətrafında müzakirələr aparılıb. Əlbəttə, atəşkəs rejiminin möhkəmləndirilməsi münaqişənin dondurulması və ya qəbuledilməz olan status-kvonun saxlanması anlamına gəlmir. Məlum olduğu kimi, Azərbaycanın qəti mövqeyi ondan ibarətdir ki, işğala əsaslanan status-kvo tezliklə dəyişdirilməlidir.

Ardı 6-cı səh.

## Azərbaycanın Beynəlxalq Şahmat Federasiyasına verdiyi dəstək daim hiss olunur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Arkadi Dvorkoviçi qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı, ilk növbədə, Arkadi Dvorkoviçi Beynəlxalq Şahmat Federasiyasının prezidenti kimi yüksək vəzifəyə seçilməsi münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev Arkadi Dvorkoviçin bu vəzifəyə seçilməsindən sonra qısa bir zaman ərzində Azərbaycana səfərinin önəmini qeyd edərək, bunu ölkəmizin şahmat ənənələrinə diqqət və hörmət əlaməti kimi dəyərləndirdi. Dövlət başçısı Arkadi Dvorkoviçin səfəri zamanı Azərbaycanla FIDE arasında əməkdaşlığın perspektivləri, ölkəmizin dünya şahmat ailəsində fəal iştirakı və qarşılıqlı fəaliyyəti ilə bağlı məsələlər ətrafında səmərəli müzakirələrin aparılacağına ümidvar olduğunu bildirdi.

Xoş sözlərə və təbrikə görə minnətdarlığını bildirən Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviç Azərbaycana səfərindən və Prezident İlham Əliyevlə görüşündən şərəf duyduğunu dedi. O, ölkəmizin FIDE-yə verdiyi dəstəyi yüksək qiymətləndirərək, bunun təşkilatın fəaliyyətində daim hiss olunduğunu vurğuladı. Arkadi Dvorkoviç, eyni zamanda, Azərbaycan nümayəndəsinin FIDE-nin vitse-prezidenti vəzifəsinə seçilməsinin əhəmiyyətini qeyd etdi.

Görüşdə Azərbaycanda idmana, o cümlədən şahmata dövlət səviyyəsində böyük diqqət və qayğı göstərildiyi vurğulandı.

Söhbət zamanı Arkadi Dvorkoviç "Skolkovo" Fondunun sədri kimi rəhbərlik etdiyi təşkilatın Azərbaycanla əməkdaşlığa önəm verdiyini, artıq telekommunikasiya sahəsində birgə işlərin aparıldığını dedi və digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi.

## Türkiyənin kənd təsərrüfatı sahəsində əldə etdiyi uğurlar Azərbaycan üçün böyük maraq doğurur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Bekir Pakdemirlini kənd təsərrüfatı və meşəçilik naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edərək, onun ilk dəfə nazir kimi Azərbaycana səfərindən məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı, kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu dedi. Kənd təsərrüfatının inkişafına ölkəmizdə böyük önəm verildiyini deyən dövlət başçısı bunun iqtisadiyyatın şaxələndirilməsi baxımından əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev Türkiyənin kənd təsərrüfatı sahəsində əldə etdiyi uğurların və təcrübənin Azərbaycan üçün böyük maraq doğurduğunu dedi. Dövlət başçısı Bekir Pakdemirlinin Bakıda aqrar və yaşıl texnologiyalar üzrə "AgTech and Green Energy" mövzusunda keçirilən beynəlxalq forumda iştirakının əhəmiyyətini vurğuladı və onun Azərbaycana bu səfərinin əməkdaşlığın perspektivlərinin səmərəli müzakirəsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Ardı 2-ci səh.

## Yeniliklər bəhrə verir

### İslahatlar kəndlinin həyat səviyyəsini, kəndin isə sosial simasını dəyişir

Sovetlər dönəmində kolxozçu, sovxoz fəhləsi dediyimiz, ondan əvvəl isə mülkədar kimi damğalanan Azərbaycan kəndlisi bu gün inamla ayağa durur, uzun illər əlindən alınmış torpağa, mal-qaraya yenidən sahib çıxır. Azərbaycan dövləti öz kəndlisinin müasir fermer kimi dirçəlməsi üçün ciddi islahatlar həyata keçirir.



Qeyri-neft sektorunun şaxələnməsi istiqamətində dövlətin atdığı addımların sırasında aqrar sektorda aparılan islahatlar xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan önə çəkilən vacib məsələlərdən biri müasir elmi bilikləri və təcrübəni ölkənin aqrar sektorunda hamı üçün əlçatan etməkdir. Kənd təsərrüfatının bütün istiqamətlərinin harmonik inkişafı üçün kiçik pay torpaq sahiblərinin və islahatlardan kənarda qalan fermerlərin yenidən təşkilatlanması, müasir dünya təcrübəsi ilə tanış edilməsi, maarifləndirilməsi prioritet istiqamətlərdən birinə çevrilir.

Bu günədək ölkənin aqrar sektorunda çoxsaylı islahatlar aparılmışdır. Eyni zamanda istənilən ölkənin qibtə edə biləcəyi böyük su anbarları tikilmiş, yüz min hektarlarla torpaq sahələri əkin dövriyyəsinə qatılmış, müasir logistika sistemi qurulmuş, böyük aqrar müəssisələr, aqroparklar yaradılmış, emal müəssisələri işə salınmış, yeni ixrac bazarlarına çıxışlar əldə edilmişdir. Qanunvericilikdə də geniş dəyişikliklər olmuşdur.

Ardı 6-cı səh.

## Erməni xalqı Paşinyanı boykot etdi, Sarkisyan xuntasını isə tarixin arxivinə göndərdi

### Əhalinin yarıdan çoxunun iştirak etmədiyi parlament seçkiləri insanların heç bir siyasi qüvvəyə inanmadığını göstərdi

Ermənistanda keçirilən növbədənkənar parlament seçkiləri mahiyyət etibarı ilə əvvəlkilərdən fərqlənməyərək total şəkildə həyata keçirilən çoxsaylı qanun pozuntuları ilə yadda qaldı. Özü də bu o şəraitdə baş verdi ki, seçici fəallığı o qədər də yüksək olmadı. Ermənistan Mərkəzi Seçki Komissiyasının sədri Tiqran Mukuçyan bildirir ki, səsvermə hüququna malik olan vətəndaşların 48,63 faizi iştirak edib.

Qeyd edək ki, Ermənistanda rəsmi rəqəmlərə əsasən səs vermə hüququna malik vətəndaşların sayı 2 milyon 573 min 779 nəfərdir. Seçkiyə onların yarıdan çoxu, yəni 51,37 faizi qatılmayıb. Xatırladaq ki, Ermənistanda bundan öncəki parlament seçkilərində seçici aktivliyi 60,86 faiz olub. Seçkilər göstərdi ki, erməni xalqı idarəedici elitanın nə müxalif, nə də iqtidar kəsiminə etibar etmir. Odur ki, seçici fəallığı həmişə olduğundan daha aşağı idi və küçələrə axışan kütlənin təzyiqilə oxlokratik rejim qurmuş Paşinyan xalqın böyük əksəriyyətinin etimadını qazana bilmədi.

### Saxtakarlıqla qazanılan qələbə

Bununla belə Ermənistanda baş nazirin vəzifəsini icra edən Nikol Paşinyanın alyansı parlament seçkisində qalib gəlib. Alyansa səslərin 70 faizindən çoxunu yığaraq, Paşinyanın sözlərilə desək, ölkəyə "inqilabi çoxluğu" qazandırıb. Artıq 2010 seçki məntəqəsindəki bülletenlərin hamısı sayılıb.

Mərkəzi Seçki Komissiyası Paşinyanın "Mənim addımım" alyansının səslərin 70,4 faizini qazandığını bildirir. Hakimiyyət çevrilişi zamanı Paşinyana dəstək verən oliqarx Hagik Tsarukyanın rəhbəri olduğu "Çiçəklənən Ermənistan" partiyası səslərin 8,3 faizini qazanıb.




Liberal, qərbyönümlü "İşıqlı Ermənistan" partiyası 6,4 faiz səslə üçüncü yerdədir. Bu partiyaya Paşinyanın müttəfiqi Edmon Marukyan başçılıq edir.

Sabiq prezident Serj Sarkisyanın sədri olduğu "Respublika" partiyası isə səslərin cəmi 4,7 faizini yığıb ki, bu da parlamentə daxil olmaq üçün qoyulan 5 faizlik baryerdən azdır. "Daşnaktsütyun" partiyası 3,9 faiz səs toplayıb.

Mövcud qanunvericiliyə əsasən, parlamentdə minimum 3 partiya təmsil olunmalıdır. Eyni zamanda, heç bir partiya parlamentdə yerlərin üçdə-ikisini, yaxud 66 faizindən çoxunu əldə edə bilməz. Səslərin heç olmasa 33 faizi müxalifət partiyasına verilməlidir.

Ardı 6-cı səh.

# Türkiyənin kənd təsərrüfatı sahəsində əldə etdiyi uğurlar Azərbaycan üçün böyük maraq doğurur



***Əvvəli 1-ci səh.***

Kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirli Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Bakıda aqrar və yaşıl texnologiyalar üzrə "AgTech and Green Energy" mövzusunda keçirilən beynəlxalq forumun əhəmiyyətinə toxundu, ölkəmizə böyük nümayəndə heyəti ilə gəldiyini dedi və nümayəndə heyətinin tərkibinə kənd təsərrüfatı və qida sənayesi sahəsində fəaliyyət göstərən iş adamlarının da daxil olduğunu bildirdi.

Söhbət zamanı kənd təsərrüfatı sahəsində çalışan Azərbaycan və Türkiyə iş adamlarının dekabrın 11-də Bakıda birgə biznes forumunun keçiriləcəyi və bunun əməkdaşlığımızın genişləndirilməsi baxımından əhəmiyyətli olacağı vurğulandı. Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

## Burkina-Fasonun Prezidenti zati-aliləri cənab Rok Mark Kristian Kaboreyə

Hörmətli cənab Prezident!

Burkina-Fasonun milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2018-ci il*

## C.M.Topçubaşova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda səhiyyə sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Ceyhun Mustafa oğlu Topçubaşova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

## V.F.Əsədovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının 90 illik yubileyi münasibətilə və Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə Vaqif Firudin oğlu Əsədov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

## Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı əməkdaşlarının təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının 90 illik yubileyi münasibətilə və Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Qasımov Tariel İsgəndər oğlu

**"Tərəqqi" medalı ilə**

Babayeva Məsumə Mustafa qızı
Babayeva Sona
Əliyev Rahib Səyidağa oğlu
Əsədov İsa Qadir oğlu
Hüseynova Kəmalə Müzəffər qızı
Muradxanlı Ələsgər Calal oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

## Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının əməkdaşlarına fəxri adların verilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının 90 illik yubileyi münasibətilə və Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq artisti"**

Əliyeva Lətifə Cahandar qızı
Novruzova Nübar Qulu qızı

**"Əməkdar artist"**

Abdullayeva Mehriban Abdulla qızı
Əsədov İlham Əsəd oğlu
Hüseynov Elnur Bəhrəmxan oğlu
Şərifova Güşvər Fətulla qızı

**"Əməkdar mədəniyyət işçisi"**

Rəhimli Rafiq Səfər oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

## Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji kadrların attestasiyasının aparılması işinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Son illər Azərbaycan Respublikasında elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı, elmi innovasiya fəaliyyətinin dəstəklənməsi və elmi nailiyyətlərin stimullaşdırılması sahələrində bir sıra tədbirlər həyata keçirilmişdir.

Bununla yanaşı, müasir dövrün çağırışları yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyasının aparılması ilə əlaqədar vahid dövlət siyasətinin gerçəkləşdirilməsində, elmi fəaliyyətin mövcud potensiala uyğun monitorinqi, qiymətləndirilmə və proqnozlaşdırılma mexanizmlərinin təkmilləşdirilməsi və səmərəli istifadəsində qabaqcıl beynəlxalq təcrübənin, yeni idarəetmə modelləri və innovativ həllərin tətbiqini zəruri edir.

Bu istiqamətdə elmi işlər, elmi və elmi-pedaqoji işçilər haqqında ölkə üzrə informasiya resurslarının müasir texnologiyalar əsasında formalaşdırılması, vahid elektron informasiya sisteminin yaradılması, elmi fəaliyyətin monitorinqinin və qiymətləndirilməsinin aparılmasında elektron hesabat formalarının, elmmetrik və ekspert yanaşmalarına əsaslanan metodika və meyarların hazırlanması, həmçinin elm sahəsində diaqnostik təhlillərin gücləndirilməsi məsələləri mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji kadrların attestasiyasının aparılmasının təkmilləşdirilməsi və elmi tədqiqatların səviyyəsinin yüksəldilməsi məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası iki ay müddətində:

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, tabeliyində elm və təhsil müəssisələri olan qurumların təkliflərini nəzərə almaqla, elmi dərəcə və elmi adların verilməsi qaydalarının, elmi fəaliyyətin qiymətləndirilməsi və monitorinqi sahəsində idarəetmənin və tənzimləmənin təkmilləşdirilməsi, elmi tədqiqatlar haqqında məlumat bazasının yaradılması və elmi informasiyanın əlçatanlığının təmin edilməsi, eləcə də analitik, statistik təhlillərin və hesabatların keyfiyyətinin yaxşılaşdırılması üçün vahid elektron məlumat sisteminin yaradılmasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının fəaliyyətinin təkmilləşdirilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

## *Ukraynanın birinci prezidenti:* "Heydər Əliyev özünü ölkəsindən kənarda təsəvvür etmirdi"

"Heydər Əliyev Azərbaycanın övladıdır. Bu barədə əlavə heç nə deməmək də olar... Bununla hər şey deyilib. O öz xalqının övladıdır. Heydər Əliyev mənimlə söhbətində həmişə Azərbaycan barədə danışırdı. O özünü ölkəsindən kənarda təsəvvür etmirdi".

Ukraynanın birinci prezidenti Leonid Kravçuk bu sözləri "Moskva-Bakı" portalına müsahibəsində söyləyib.

AZƏRTAC xəbər verir ki, L.Kravçuk Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev haqqında xatirələrini bölüşüb. O deyib:

- Heydər Əliyevi ilk dəfə Sov.İKP qurultayında gördüm. O, çıxış edirdi, mən isə zalda onu dinləyirdim. Heydər Əliyev çox parlaq, emosional çıxış edir, şərqlilərə xas olan müqayisələr aparırdı. Onda həmkarlarımdan soruşdum: Heydər Əliyev əvvəllər harada işləyib? Mənə dedilər ki, təhlükəsizlik xidmətində çalışıb. Mən heyrətləndim, çünki DTK-da işləyən adamlar, bir qayda olaraq, parlaq natiqlər deyildi, onlar şəxsiyyətləri ilə seçilməyən, kölgədə işləməyə vərdiş etmiş adamlar olur. İndi isə bu adam belə bir səhnəyə, qurultayın tribunasına çıxıb, zal adamla doludur (bu hadisə Qurultaylar Sarayında olmuşdu), zal onu dinləyirdi. Zalda 4 min adam olanda auditoriyanı ələ almaq çox çətindir. Sənin qarşında 20 nəfər olanda onların hamısını görürsən, 4 min nəfəri görmək isə çətindir. Amma Heydər Əliyev bunu bacardı. Heydər Əliyev mənim yaddaşımda ilk dəfə bu epizodla qaldı.

Daha bir məqam. L.İ.Brejnev Bakıya gəlmişdi. Onu necə qarşıladıqlarını televizorda müşahidə edirdim. Leonid İliçi bütün Bakı qarşılayırdı. Demək olar ki, bütün evlərin balkonlarında xalçalar asılmışdı. Bu cür qarşılamanı, bu qədər xalçanı görəndə dərhal bunlar diqqətimi cəlb etdi. Mən həmkarlarımdan soruşdum: "Sov. İKP MK-nın baş katibini bu cür fəal, belə emosional şəkildə və səmimi qarşılayırlar..." Mənə cavab verdilər: "Bizdə ənənə belədir, ali qonaq gələndə onu dəbdəbə ilə, qəşəng, kütləvi şəkildə qarşılayırıq". Maraqlandım: İndi sizdə bu cür ənənələri kim davam etdirir? "Əliyev", - deyə cavab verdilər.

Heydər Əliyevlə şəxsən görüşənə qədər bu iki məqam yaddaşıma həkk olundu və məndə onun haqqında təsəvvür yarandı. Ümumiyyətlə, mənim fikrim qeyri-standart idi, çünki bu insan özü qeyri-standart idi...

Daha bir epizod. Bu hadisə Moskvada, MDB dövlət başçılarının iclasında olub. İclası Boris Nikolayeviç Yeltsin aparırdı. İclas zamanı Heydər Əliyev ona müraciətlə bəzi məsələlərin həllində Azərbaycana kömək göstərilməsini xahiş etdi. Hafizəm məni aldatmırsa, Heydər Əliyev, o cümlədən, ərzaq məsələsində kömək istədi, habelə MDB-nin ümumi məkanının qorunması üçün şərait yaradılması məsələsini qaldırdı. Heydər Əliyevin bu təklifinin cavabında Yeltsin dedi ki, biz bu suala dərhal cavab verməyə hələ hazır deyilik, çünki bütün bunlar Rusiyaya həvalə olunacaq, Rusiya isə hələ buna hazır deyil. Onda mən Heydər Əliyevi şəxsən dəstəkləməyi qərara aldım və dedim: "Boris Nikolayeviç, Əliyev məsələni düzgün qoyur. Ukraynada da bu məsələlər var. Bu məsələni qaldırdığına görə biz ona sadəcə təşəkkür etməli və məsələni həll etməyə başlamalıyıq". Yeltsin cavab verdi: "Yaxşı, əgər Ukrayna bunu belə dəstəkləyirsə, qoy olsun". Sonra fasilədə Əliyevlə görüşdüm. Onu dəstəklədiyimə görə mənə təşəkkürünü bildirdi, mən isə izah etdim ki, o, məsələni düzgün qoyub, buna görə mənim onu dəstəkləməyim təbiidir.




Heydər Əliyev Azərbaycanın övladıdır. Bu barədə əlavə heç nə deməmək də olar... Bununla hər şey deyilib. O öz xalqının övladıdır. Heydər Əliyev mənimlə söhbətində həmişə Azərbaycan barədə danışırdı. O özünü ölkəsindən kənarda təsəvvür etmirdi.

Məndə olan məlumata görə, Heydər Əliyevin SSRİ Nazirlər Sovetinin sədri vəzifəsinə namizədliyi təklif olunmuşdu. Əliyevin Sov. İKP MK-nın baş katibi vəzifəsinə namizədliyinin təklif olunması məsələsinə gəldikdə isə, mənim belə məlumatım olmayıb. Baş nazir təyinatı barədə Ukrayna ilə söhbət olmuşdu, belə müzakirələr gedirdi ki, bu vəzifəyə Şerbitski namizəd ola bilər. Ola bilsin, Şerbitskinin namizədliyini bilirdim, çünki bu söhbətin birbaşa Ukraynaya aidiyyəti vardı və belə məlumat tez bir vaxtda mənim əlimə keçirdi.

Əgər Heydər Əliyev Sovet İttifaqına başçılıq etsəydi, nəyinsə başqa cür olub-olmayacağı barədə indi danışmaq çətindir. Niyəsini deyim. Partiyada (Sov. İKP-də), xüsusən Rusiyada kadr məsələləri çox mürəkkəb şəkildə həll edilir. Müttəfiq respublikadan olan adamın ümumittifaq vəzifəsinə irəli çəkilməsi heç də asan olmur. Onlar partiyanın, sovetin birinci vəzifələrinə, Ali Sovetin Rəyasət Heyətinə çox nadir hallarda irəli sürülürdü. İkinci, üçüncü rollara ola bilərdi, amma birinci vəzifələrə irəli sürülmək çox-çox çətin idi. Hətta belə bir hadisə baş versəydi və deyək ki, Heydər Əliyevi Sov. İKP MK-nın birinci katibi və ya baş katibi seçsəydilər, nəyinsə dəyişib-dəyişməyəcəyi məlum deyil... Əlbəttə, ola bilərdi. Mən güman etmirəm ki, bu halda yenidənqurma həmin variantda həyata keçirilərdi. Heydər Əliyev "dil pəhləvanı" deyildi. O, necə deyərlər, az danışır, amma söz danışırdı. Mixail Qorbaçov isə gəlişigözəl danışmağı ilə məşhurlaşmışdı, "tutuquşu" kimi danışmağı bacarırdı: adamları toplayır, onlarla danışır, ilk baxışda çox demokratik rol oynayır, daim vədlər verir, qarşıda duran vəzifələri tez-tez dəyişirdi. Düşünürəm ki, əgər onun yerində Əliyev olsaydı, hər şey daha sakit və daha ciddi şəkildə cərəyan edərdi.

O vaxt Azərbaycan 1-ci Belovejsk Sazişində iştirak etməmişdi, amma bu sazişi dəstəkləmişdi. MDB-ni möhkəmlətmək lazım olanda Heydər Əliyev işləyir və həmişə elə həllər tapırdı ki, onlar Azərbaycan xalqının milli maraqlarını zəiflətməsin. O, öz ölkəsini möhkəmlətmək ideyası vasitəsilə MDB çərçivəsində məsələlərin həlli yollarını tapırdı.

İndi, Prezident İlham Əliyevin dövründə Azərbaycan həm milli, həm də beynəlxalq baxımdan yaxşı mövqe tutur. Bakıda tikinti işlərinin vüsəti məni heyrətləndirdi. Bu, Yaxın Şərqin zəngin ölkələri ilə müqayisə edilə biləcək genişmiqyaslı, müasir tədbirlərdir. Təəssüf ki, bütün ölkəni görməyə imkan tapmadım. Azərbaycana 3 il bundan əvvəl gəlmişəm və yalnız Bakıda olmuşam. Lakin paytaxt mənə müsbət təsir bağışlayıb.

Mənim fikrimcə, bu gün Azərbaycan ağıllı xarici siyasət yürüdür. O, regionda münaqişələrin səbəbi və ya münaqişə ocağı deyil, hər hansı münaqişəli mövzular və problemlərlə bağlı deyil. Deməli, bu ölkə rahat inkişaf edə bilər.

Mən müasir Azərbaycanın yürütdüyü siyasəti, onun atdığı addımları müsbət qiymətləndirirəm. Ən başlıcası, ölkə yaşayır və inkişaf edir. Mən köhnə Bakını da xatırlayıram, indi onun necə dəyişməsini də görürəm. Bu, paytaxtın simasını qısa müddətdə necə dəyişmək olduğunu göstərən nümunədir. Bu, çox böyük işdir. Bu işə böyük vəsait qoyulub, böyük qüvvə sərf edilib. Azərbaycan bunu necə edib?! Düşünürəm ki, Azərbaycandan öyrənilməli məsələlər var - bu ölkədə mövcud olan asayişi, görülən təşkilati işləri və məsuliyyət hissini öyrənməyə dəyər.

## *Vitali İQNATENKO:* "Heydər Əliyev zamanın fövqündə duran şəxsiyyətdir"

İTAR-TASS agentliyinin sabiq baş direktoru Vitali Iqnatenko Azərbaycanın ümummilli lideri Heydər Əliyevin insanlara olan sevgisini, səmimiliyini və özünə qarşı xeyirxahlığı qiymətləndirmək qabiliyyətini yüksək dəyərləndirib. AZƏRTAC xəbər verir ki, o, dahi şəxsiyyətlə bağlı düşüncələrini "Moskva-Bakı" portalına danışıb.

- Heydər Əliyev zamanın fövqündə duran şəxsiyyətdir. Onu xatırladıqda böyük xoşbəxtlik hissi keçirirsən ki, haçansa sənə bu dahi şəxsiyyətin yanında olmaq səadəti nəsib olub. Şəxsiyyətinin miqyası çox nəhəng olan Heydər Əliyev özünün yüksək mədəniyyəti, cazibəsi, güclü iradəsi, geniş intellekti sayəsində çox şeyə qadir idi. Heydər Əliyev Azərbaycan xalqının taleyüklü məsələləri ilə bağlı çox mühüm işlər görüb. Hər bir insanın taleyinə töhfə vermiş bu dahi şəxsiyyətin xatirəsi ildən-ilə yeni keyfiyyətlərlə zənginləşərək, daim yaşayacaq. Digər tərəfdən, biz hamımız onun necə gözəl ata, baba, ömür-gün yoldaşı, silahdaşları üçün dost və yoldaş olduğunu xatırlamalıyıq. Düşünürəm ki, onun bu keyfiyyətləri hər zaman yaddaşlarda qalacaq. Heydər Əliyev ətrafdakılar üçün çox dərin düşüncəyə malik və əhəmiyyətli bir insan idi. O, gələcək nəsillərə çox vacib miras qoyub. Heydər Əliyevi əvəz edən nəslin nümayəndələri onun şəxsiyyətinin miqyasının böyüklüyünü daim nəzərdən keçirməli, öyrənməli və lazımınca qiymətləndirməlidir.



Yolunun onunla kəsişdiyi ən xoşbəxt insanlardan biri də mənəm. Əlbəttə, həyatda qismətimiz olan xidməti mövqe, vəzifə baxımından mən onun yanında deyildim. Lakin biz bir neçə dəfə görüşmüşük. Bu görüşlər məndə və ailə üzvlərimdə böyük təəssüratlar doğurub.

Prezident Administrasiyasında işlədiyim vaxt mənə yay mövsümü üçün xidməti bağ evi təklif etdilər. Böyük, gözəl və rahat bağ evi idi. Mən ona baxdıqdan və ən kiçik detalları nəzərdən keçirdikdən sonra elə təəssürat yarandı ki, sanki bağ evinin sahibi harasa çıxıb və indi qayıdacaq. Mən burada kimin yaşadığını soruşdum. Cavab verdilər: "Əliyev. O, indi xəstəxanadadır və bu bağ evinə qayıtmayacaq". Doğrusu, mən bundan çox pis oldum. Nəticə olaraq mən bağ evindən imtina etdim. Məni gözləməyə məcbur etdilər və uzun müddət heç nə vermədilər... İllər ötdü, mən bu hadisəni unutdum. Bağ evinin xidmətçilərindən biri bu əhvalatı Heydər Əliyevə danışıb. Uzun illər sonra Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti oldu. Biz qəbulların birində görüşdük və o, həmin hadisəni mənim jurnalist həmkarlarıma danışdı. Onun bu əhvalatı xatırlaması məni çox mütəəssir etdi!

...İnsanı həmişə kiçik detalların prizmasından qiymətləndirmişəm. Bu, onun çox yüksək vəzifə daşıdığı vaxt daha da mühümdür. Belə ki, onda insanlara sevgi hissi, səmimilik və hər zaman köməyə çatmaq kimi keyfiyyətlər üzə çıxır. Əgər bütün bunlar mövcuddursa, onda başa düşürsən ki, qarşındakı böyük şəxsiyyətdir. Onda heç bir zaman "başgicəllənmə" olmayacaq və bütün vəziyyətlərdə insani keyfiyyətləri ön planda tutacaq, böyük işlər haqqında düşünəcək və onları həyata keçirəcək. Fikirləşirəm ki, bütün bunlar sonradan kollektivə, şəhərə və ölkəyə sirayət edir. Son nəticədə isə ona gətirib çıxarır ki, ölkənin daxilində və ətrafında tamamilə fərqli mühit yaranır. Yalnız qeyri-adi taleyə və zəngin daxili mədəniyyətə malik olan şəxsiyyət bunu etməyə qadirdir.

Heydər Əliyev mənim üçün məhz bu cür şəxsiyyət idi.

## Misir və Livan mətbuatı ulu öndər Heydər Əliyev haqqında silsilə məqalələr yayıb

Misirin və Livanın aparıcı mətbuat orqanları ulu öndər Heydər Əliyev haqqında silsilə məqalələr yayıb.

AZƏRTAC xəbər verir ki, Misirin yarım milyon tirajla çıxan gündəlik "Əl-Əhram" qəzeti, eləcə də nüfuzlu "El-Vatan", "Al-Masry Al-Youm" qəzetləri, həmçinin Livanın "Ən-Nəhar", "Al3arabia.net", "Lebanesenews", "Al-seyasa.com", "Cedarnews.net", "Araznews" və digər xəbər saytları tərəfindən yayılan məqalələrdə Heydər Əliyev şəxsiyyətinin böyüklüyündən, onun zəngin və çoxşaxəli fəaliyyətindən, Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərindən ətraflı bəhs edilir.

Məqalələrdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatından 15 il keçdiyi bildirilir.

Qeyd edilir ki, bu böyük insan Azərbaycana onilliklər boyu rəhbərlik edib, xalqın xatirəsində tarixi lider və ölməz şəxsiyyət kimi yaşayır. Heydər Əliyev Azərbaycanı parçalanmaq təhlükəsindən xilas edərək birliyə, sabitliyə nail olub, onu yoxsulluq səviyyəsindən, gerilikdən qurtararaq həyatın bütün sahələrində tərəqqiyə, çiçəklənməyə aparıb. Məhz buna görə də o, ölməz tarixi lider və müasir Azərbaycanın memarı kimi yaddaşlara həkk olub. O, milli birlik üçün sabitlik yaradıb, Azərbaycan xalqının həyatının çətin anlarında vətəndaş müharibəsinin baş verməsinin qarşısını alıb. Bu böyük liderin həyat və fəaliyyətindən yazmaq üçün bir ensiklopediya lazımdır. Onun tərcümeyihalının hər bir məqamı milli irsdir, Azərbaycan xalqının fəxr mənbəyidir. Heydər Əliyev Azərbaycanın müasir tarixini yaradıb. Yazılarda Heydər Əliyevin 1923-cü il mayın 10-da Azərbaycanın qədim diyarı olan Naxçıvanda dünyaya göz açdığı qeyd edilir. Naxçıvanın Azərbaycan tarixində, elmində, mədəniyyətində dərin izlər qoymuş ədiblərin, mütəfəkkirlərin vətəni olduğu diqqətə çatdırılır. Ulu öndərin gənclik illəri, tutduğu yüksək vəzifələr, hələ Sovet Azərbaycanına rəhbərliyi dövründə respublikanın inkişafı üçün gördüyü mühüm işlər haqqında ətraflı məlumat verilir. Bildirilir ki, Heydər Əliyev gənclərə hər zaman diqqət və qayğı ilə yanaşırdı. O, hesab edirdi ki, gənclər Azərbaycanın gələcəyidir. Ona görə də Heydər Əliyevin prioritetlərindən biri məhz gənclər üçün təhsil imkanlarının təmin edilməsi idi. Bu gün həmin gənclər ölkənin inkişafına xüsusi töhfələr verirlər.

1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunduğu qeyd edilən məqalələrdə bunun ulu öndərin siyasi karyerasında yeni mərhələ olduğu diqqətə çatdırılır. Vurğulanır ki, Heydər Əliyevin Siyasi Büroya üzv seçilmiş ilk azərbaycanlı olması da Azərbaycan xalqının tarixində mühüm hadisə idi.

Yazılarda 1993-cü ildə ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasında siyasi hakimiyyətə qayıdışından sonra ölkədə gedən sürətli inkişaf prosesləri, həyata keçirilən islahatlar barədə məlumatlar ətraflı şəkildə oxucuların diqqətinə çatdırılır. Bildirilir ki, Prezident Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkənin müstəqilliyinin möhkəmlənməsi, inkişafı yolunda çalışıb. Təsadüfi deyil ki, onun hakimiyyət illəri, haqlı olaraq, Azərbaycanın müasir dövlət quruculuğu yolunda köklü dəyişikliklər və inkişaf mərhələsi sayılır. Həmin illərdə daxili və xarici siyasətdə böyük dəyişikliklər baş verdi. Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə müasir tarixinin yeni mərhələsinə daxil oldu, dünya birliyində fəal dövlətə çevrildi, beynəlxalq ictimaiyyətin nəzəri Xəzər dənizi hövzəsində yerləşən Qafqaz regionundakı bu ölkəyə yönəlməyə başladı.

Məqalələrdə vurğulanır ki, ümummilli lider Heydər Əliyevin vəfatından 15 il keçsə də o özünün böyük xidmətləri ilə Azərbaycan xalqının yaddaşında qalır. Azərbaycan xalqının ulu öndərin vəfatının ildönümlərini qeyd etməsi onun xatirəsinə ehtiramdan irəli gəlir.

Qeyd edilir ki, bu gün Azərbaycan Heydər Əliyevin irsinə əsaslanaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf edən ölkədir. Azərbaycan iqtisadiyyatı çox böyük inkişaf göstəriciləri əldə edib. Prezident İlham Əliyevin davamlı demokratik və iqtisadi islahatları, onun müdrik rəhbərliyi, fəal xarici siyasəti Azərbaycanı regional müstəvidə öncül dövlətə və beynəlxalq münasibətlərdə etimad edilən inamlı tərəfdaşa çevirib. Azərbaycan bütün regional məsələlərdə aparıcı rol oynayır, inkişafın bəhrələrini tərəfdaşlıq və əməkdaşlıq əsasında region dövlətləri ilə bölüşür.

# Bakıda aqrar və yaşıl texnologiyalar üzrə beynəlxalq forum keçirilir

## Heydər Əliyev Fondunun vitse-prezidenti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyeva forumun açılış mərasimində iştirak edib



Dekabrın 10-da Azərbaycanda ilk dəfə aqrar və yaşıl texnologiyalar üzrə "AgTech and Green Energy" mövzusunda beynəlxalq forum işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Kənd Təsərrüfatı və Energetika nazirliklərinin birgə təşkilatçılığı ilə ADA Universitetində keçirilən forumun açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyeva, dövlət qurumlarının rəsmiləri, fermer təsərrüfatlarının rəhbərləri, yaşıl texnologiyalar üzrə xarici ekspertlər, startap və texnoloji şirkətlərin nümayəndələri, özəl sektorun təmsilçiləri iştirak ediblər.

"Yaşıl gələcək üçün innovasiyalar" şüarı ilə keçirilən forumda çıxış edən ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev deyib: "Hazırda yaşıl enerji və bu sahənin inkişafı üçün texnologiyalar dünyada geniş yayılıb. ADA Universiteti də bu sahəni diqqətdə saxlayır. Universitetin mövcud kampusu yaşıl və smart texnologiyası əsasında qurulub. Ümumilikdə 50 faiz enerji bu mənbələrdən, xüsusilə geotermal enerji mənbələrindən əldə edilir. Hazırda ADA Universitetində yeni binalar da inşa olunur. Bütün bu texnologiyaların tətbiqi burada təhsil alan tələbələrin təcrübə və biliklərinin artırılmasına öz təsirini göstərir. Heydər Əliyev Fondunun vitse-prezidenti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyeva ətraf mühitin qorunması, təhlükəsiz, sağlam və yaşıl gələcəyə təminat verən çoxsaylı təşəbbüslərlə yanaşı, ADA Universitetində keçirilən beynəlxalq tədbirlərdə məmnuniyyətlə iştirak edir".

Kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, bu cür əhəmiyyətli beynəlxalq forumun ölkəmizdə keçirilməsi Azərbaycanın bütün əməkdaşlıq sahələri üzrə hər zaman etibarlı tərəfdaş olduğunu təsdiqləyir: "Hazırda Azərbaycanda qeyri-neft sektorunun inkişafı ən aktual məsələlərdən birinə çevrilib. Qeyri-neft sektorunun önəmli bir sahəsi olan aqrar sahə özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkədə kənd təsərrüfatı sürətlə inkişaf edir. Ümumi daxili məhsulda kənd təsərrüfatının payı artır. İxracda qeyri-neft sektorunun payı, o cümlədən kənd təsərrüfatı məhsullarının payı yüksəlib".

Nazir deyib ki, aqrar sahəni iqtisadiyyatın prioritet sahəsi kimi müəyyən edən Prezident İlham Əliyev ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tapşırıqlar müəyyənləşdirib: "Bu tapşırıqlar mövcud resurslardan səmərəli istifadə etmək, məhsuldarlığı artırmaq, ətraf mühitin qorunmasını təmin etməkdən ibarətdir. Müəyyənləşən vəzifələrə uyğun olaraq fəaliyyət prinsiplərimizdə düzgün və səmərəli idarəçilik, kəndli və fermerlərə yaxınlıq, innovasiyaların tətbiqini əsas götürürük. Sevindirici haldır ki, dövlətin göstərdiyi diqqət nəticəsində qarşımıza qoyulan vəzifələrin icrası istiqamətində uğurlu nəticələr əldə olunub. Ölkədə əhalinin ərzaqla özünü təminetmə səviyyəsi yüksəlib. Bu ilin 9 ayı ərzində kənd təsərrüfatı məhsulunun ümumi həcmi ötən illə müqayisədə 4,3 faiz artıb. Ət və süd məhsulları ilə özünü təminetmə artıq 90 faizə çatıb. Bütün növ tərəvəz və meyvə üzrə bu göstərici 100 faizdən çoxdur. Müasir innovasiyaların tətbiqi ilə bu göstəriciləri daha da yüksəltmək mümkün olacaq".

İ.Kərimov qeyd edib ki, bu forum fermerlərə belə innovativ yeniliklərlə tanış olmaq imkanı verir: "Tədbir, eyni zamanda, təcrübə mübadiləsi aparmaq üçün yeni platforma rolunu oynayır. Belə bir forumun keçirilməsinə verdiyi dəstəyə görə Heydər Əliyev Fondunun vitse-prezidenti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri, IDEA İctimai Birliyinin rəhbəri Leyla xanım Əliyevaya təşəkkür edirəm. Hesab edirik ki, Azərbaycan aqrar sahədə innovasiyaların daha çox tətbiq olunduğu lider ölkələrdən birinə çevriləcək".

Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirli deyib ki, ölkəsi kənd təsərrüfatı sahəsində tətbiq etdiyi yenilikləri Azərbaycanla bölüşə bilər. Türkiyədə kənd təsərrüfatı sahəsində həyata keçirilən islahatlar barədə məlumat verən nazir bildirib ki, bu istiqamətdə Azərbaycanla fikir mübadiləsi aparmaq iki ölkənin əməkdaşlığının inkişafına töhfə verəcək: "Türkiyə kənd təsərrüfatının inkişaf etmiş sahələrində tətbiq etdiyi üsullarla, texnoloji yeniliklərlə bağlı təcrübəsini Azərbaycanla bölüşməyə hazırdır".

Azərbaycan Respublikası Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri Azər Əmiraslanov qeyd edib ki, ölkədə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı və rasional qidalanmasının təmin edilməsi diqqətdə saxlanılır: "Kənd təsərrüfatı iqtisadiyyatın mühüm sahəsidir. Aqrar sektor nə qədər inkişaf etsə də, biz ekoloji tələbləri gözləməli, ekosistemi qorumalıyıq. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri Leyla xanım Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə həyata keçirdiyi ekoloji layihələr xüsusi olaraq qeyd edilməlidir".

A.Əmiraslanov deyib: "Bu gün aqrar siyasətin başlıca vəzifəsi effektivlik meyarlarının və ekoloji tələbləri səmərəli şəkildə uzlaşdırmaqdan ibarətdir. Hazırda ölkədə kənd təsərrüfatının inkişafına yönəlmiş sistemli və kompleks tədbirlər görülür. Aqrar sahənin inkişafı üçün strateji məqsədlər, vəzifələr, prinsiplər və hədəflər müəyyən olunub. Aqrar sektor Azərbaycanda prioritet sahə elan edilib. Çünki o, dayanıqlı inkişafın təmin olunmasında, iqtisadiyyatın şaxələndirilməsində, yoxsulluğun azaldılmasında, ən əsası isə sosial problemlərin həllində və ərzaq təminatında xüsusi rol oynayır. Məhz bu amillərə görə ölkə başçısı aqrar sahəyə həssaslıqla yanaşır, kənd təsərrüfatının inkişafına həm iqtisadi, həm də sosial məsələ kimi baxır".

Azərbaycan Respublikası Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi qeyd edib ki, kənd təsərrüfatı son yarım əsrdə çox ciddi texnoloji yeniləşmə dövrü keçib: "Hazırda müasir kənd təsərrüfatı mürəkkəb və bahalı texnologiyalara əsaslanan, eyni zamanda, böyük investisiyalar tələb edən istehsal sahəsinə çevrilib. Yeni bitki sortlarının tətbiqi, mütərəqqi suvarma sistemlərinin istifadə edilməsi, kənd təsərrüfatının sənayeləşdirilməsi yaşıl inqilabın əsas istiqamətləridir. Bu istiqamətdə ölkəmizdə də mühüm addımlar atılıb. Lakin hələ görüləcək xeyli işlər var. Prezident İlham Əliyevin əsas tapşırıqlarından biri aqrar sahədə yeni texnologiyaların geniş tətbiqi, elektron kənd təsərrüfatı sisteminin tətbiq olunması, yer səthinin müşahidə peykinin imkanlarından həm ekoloji siyasətin, həm də aqrar siyasətin məqsədləri üçün geniş istifadə edilməsindən ibarətdir. Rəqəmsal texnologiyaların kənd təsərrüfatında tətbiqi məqsəd deyil, vasitədir. Bu, məhsuldarlığın yüksəldilməsi, aqrar idarəetmənin təkmilləşdirilməsi, kənd təsərrüfatına dövlət dəstəyinin daha səmərəli təşkil edilməsinin vasitəsidir. Bugünkü forum da aqrar innovasiyaların tətbiqi ilə bağlı məsələlərin səmərəli müzakirəsinə və təcrübə mübadiləsinə öz töhfəsini verəcək".

Energetika naziri Pərviz Şahbazov isə deyib: "Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkə iqtisadiyyatının bütün sahələrində olduğu kimi, kənd təsərrüfatı və energetika sahələrində də beynəlxalq təcrübəyə uyğun islahatların aparıldığı bir dövrdə bu forumun keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bugünkü forumun əsas məqsədi aqrar və energetika sahələrinin gələcəyi, aqrar sahədə yeni texnologiyaların, o cümlədən yaşıl enerjinin tətbiqi kimi aktual mövzular ətrafında fikir mübadiləsinin aparılmasından, bu sahədə qabaqcıl təcrübəyə və dünyada müşahidə olunan trendlərə nəzər salmaqdan ibarətdir. Azərbaycan enerji siyasətini yeni çağırışlara uyğunlaşdıraraq enerji təhlükəsizliyi məsələsinə çoxşaxəli yanaşır".

Nazir bildirib ki, bu gün ölkənin ümumi elektroenergetika sisteminin qoyuluş gücündə iri su elektrik stansiyaları da daxil olmaqla bərpaolunan enerji mənbələrinin payı təxminən 18 faizə yaxındır: "Lakin bizdə bərpaolunan enerji mənbələrinin potensialı daha yüksəkdir. Təxminən 25 geqavat həcmindədir və yaxın illərdə külək, günəş və bioenerji üzrə yeni enerji güclərinin istifadəyə verilməsi planlaşdırılır. Hazırda bərpaolunan enerjinin ümumi enerji balansındakı həcminin artırılması və enerji səmərəliliyi ilə bağlı kompleks tədbirlər həyata keçirilir. Bərpaolunan enerji mənbələri sənayesinin inkişafına təkan vermək, bazarını yaratmaq, rəqabət qabiliyyətini artırmaq üçün beynəlxalq ekspertlərin dəstəyi ilə "Bərpaolunan enerji mənbələri haqqında" qanun layihəsi hazırlanır. Bu qanunun qəbulu yaşıl enerjinin kənd təsərrüfatı sektorunda da geniş istifadəsinə şərait yaradacaq. Eyni zamanda, Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birgə bərpaolunan enerjinin şəbəkəyə inteqrasiyası və şəbəkənin gücləndirilməsi layihəsinə başlanılıb. Bərpaolunan enerji sahəsində özəl sektorun iştirakı üçün əlverişli investisiya mühitinin yaradılması istiqamətində addımlar atılır. Bu sahədə ixtisaslaşmış bir sıra şirkətlərlə məsləhətləşmələr aparılır, işçi qrupları yaradılıb. Hazırda Asiya İnkişaf Bankının dəstəyi ilə Böyükşor gölündə "Üzən Günəş Paneli" pilot layihəsi həyata keçirilir".

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə deyib ki, forum aktual mövzuya həsr olunub və BMT-nin 2030-cu ilə qədər Dayanıqlı İnkişaf Məqsədlərinin icrası baxımından da olduqca əhəmiyyətlidir: "Bu gün ölkəmiz yeni inkişaf mərhələsindədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurlu islahatlar aparılır. Ölkədə ixrac potensialının gücləndirilməsi, əlverişli investisiya mühitinin formalaşdırılması, innovasiya fəaliyyətinin genişləndirilməsi istiqamətində ciddi addımlar atılır. Qəbul olunmuş Strateji Yol xəritələri milli iqtisadiyyatın inkişafı üçün yeni imkanlar açır. Bütün bunlar beynəlxalq hesabatlarda da öz əksini tapmaqdadır. Dünya Bankının son "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 25-ci yeri tutub. Eyni zamanda, ölkəmiz dünyanın 10 ən çox islahat aparan dövlətləri siyahısına daxil edilib".

Nazir qeyd edib ki, dünyada iqtisadiyyatın inkişafında yüksək texnologiyaların, innovasiyaların rolu ildən-ilə artır. Azərbaycan da bu məsələlərə xüsusi diqqət yetirir. Ölkəmizdə kənd təsərrüfatı sahəsi üzrə informasiya ehtiyatları və sistemləri yaradılıb və bu proses davam etməkdədir: "Bununla bərabər kənd təsərrüfatında yüksək texnologiyaların tətbiqi imkanları daha da genişdir. "Əşyaların interneti", dronlar, "Big Data" texnologiyaları bu sektoru yeni mərhələyə aparır. Bir çox ölkələrdə məhsuldarlığın, məhsulun keyfiyyətinin artırılmasında "Əşyaların interneti" mühüm rol oynayır. Dronların tətbiqi isə fermerlərə istənilən yerdən əkin sahələrinə nəzarət etmək imkanı verir. Bu texnologiyaların tətbiqində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi öz töhfəsini verə bilər".

"Nazirliyin tabeliyindəki İnnovasiyalar Agentliyi vasitəsilə aqrar sahədə fəaliyyət göstərən sahibkarların (fermerlərin) müasir texnologiyaları əldə etməsi və mənimsəməsi, həmçinin aqrar sahədə yüksək texnologiyaların tətbiqini nəzərdə tutan innovativ layihələrin, o cümlədən startapların maliyyələşdirilməsi istiqamətində geniş əməkdaşlıq perspektivləri var. Biz aqrar sahə üzrə informasiya ehtiyatları və sistemlərinin, böyük həcmli informasiyaların intellektual analizi üçün nazirliyin regionda yeganə TIER 3 səviyyəli data mərkəzinin xidmətlərindən istifadə edilməsini təklif edirik. Bundan əlavə, nazirliyin İKT-nin Tətbiqi və Tədrisi Mərkəzində yaradılacaq "Əşyaların interneti" laboratoriyasının imkanlarından istifadə etmək olar. Mərkəzdə aqrar sahədə yüksək texnologiyaların tətbiqi üzrə kadr hazırlığına dəstək vermək məqsədilə müxtəlif təlimlərin təşkili də əməkdaşlıq istiqaməti ola bilər. Bu forum, yeni əməkdaşlıq platformalarının yaranmasına, ölkəmizdə aidiyyəti qurumların, o cümlədən Kənd Təsərrüfatı və Təhsil nazirlikləri, Azərbaycan Milli Elmlər Akademiyası, İnnovasiya Agentliyinin birgə səyləri nəticəsində "Agrotech" klasterinin formalaşdırılmasına və inkişafına böyük töhfə verəcək", - deyə R.Quluzadə əlavə edib.

Forum çərçivəsində yaşıl texnologiyalara həsr olunan sərgi də nümayiş etdirilib. Burada yeni innovativ ekosistemlər, yaşıl texnologiyalar və onların tətbiqi ilə hazırlanan məhsullar sərgilənir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərgi ilə tanış oldu.

Dünyanın 15-ə yaxın ölkəsindən 40-dək xarici mütəxəssisi bir araya toplayan forumun əsas məqsədi Azərbaycanda kənd təsərrüfatı və enerji sahələrinin innovativ inkişafına nail olmaq, müxtəlif maraqlı tərəflər arasında əlaqələri gücləndirmək, dayanıqlı biznes modelləri və əlaqələr qurmaqdır. İki gün davam edəcək forumda ABŞ, Türkiyə, İsrail, Rusiya, Niderland, Ukrayna və bir çox ölkələrdən sahibkarlar, vençur kapitalistlər, elm xadimləri, aparıcı texnologiya şirkətlərinin nümayəndələrinin çıxışları nəzərdə tutulur. Həmçinin "Energetika və aqrar texnologiyaların gələcəyi", "Aqrar və yaşıl enerji üçün texnologiyalar", "Aqrar və energetika texnologiyaları üzrə Akademiya", "Siyasətin təsiri", "Yeni innovativ ekosistemlər", "Fermerlər üçün seksiya", "Aqrar sahə və energetika üçün biznes: AgTech sessiyası", "Aqrar sahə və energetika üçün biznes: Green Energy sessiyası", "Startap və innovasiya ekosistemi seminarı" panelləri üzrə keçiriləcək.

# "Kompas" və "Öz sözünü de" təlimat vəsaitlərinin Azərbaycan dilinə tərcümə edilmiş versiyalarının təqdimatı olub



Dekabrın 10-da Bakıda Gənclər və İdman Nazirliyinin, Avropa Şurası Gənclər Departamentinin birgə təşkilatçılığı, gənclərin iştirakı ilə insan hüquqları və vətəndaşlıq təhsili üzrə milli forum keçirilib. Forum çərçivəsində gənclərin iştirakı ilə insan hüquqlarının təhsili üzrə "Kompas" və gənclərin ictimai həyatda yerli və regional səviyyədə iştirakına dair "Öz sözünü de" təlimat vəsaitlərinin Azərbaycan dilinə tərcümə edilmiş versiyalarının təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, forumun keçirilməsində məqsəd Azərbaycanda insan hüquqları və vətəndaşlıq təhsili barədə gənclər, təhsil və insan hüquqları sahəsində fəaliyyət göstərən tərəfdaşlar və iştirakçılarla fikir mübadiləsi aparmaqdır.

Milli Məclis Sədrinin müavini, parlamentin İnsan hüquqları komitəsinin sədri Bahar Muradova tədbirdə çıxış edərək bildirib ki, bu gün dünyada insan hüquqları ilə bağlı vəziyyət narahatvericidir. Münaqişələr nəticəsində dünyada fundamental insan hüquqlarının pozulması ilə yanaşı, müxtəlif cəmiyyətlərdə irqi, dini ayrı-seçkilik halları da çoxalıb.

Azərbaycanda insan hüquqları ilə bağlı mükəmməl qanunvericilik bazasının yaradıldığını deyən B.Muradova bildirib ki, Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunvericilik aktlarında insan hüquqlarının, azad yaşamaq, təhsil almaq və digər fundamental hüquqların təmin edilməsi əksini tapıb. Azərbaycan bu istiqamətdə beynəlxalq konvensiyalara qoşulub, aidiyyəti təşkilatlarla əməkdaşlıq edir. İnsan hüquqlarının təmin edilməsi sahəsində görülən genişmiqyaslı işlər ölkəmizdə daha nikbin gələcəyi proqnozlaşdırmağa imkan verir.

Avropa Şurasının Bakı Ofisinin rəhbəri Zoltan Hernyes qeyd edib ki, Avropa Şurasının Gənclər Departamentinin insan hüquqlarının gənclər arasında təbliğinə və tədrisinə yönəlmiş "İnsan hüquqlarının təhsili üzrə gənclər layihəsi" bu sahədə görülən işlərə mühüm töhfədir. "İnsan hüquqları təhsili üzrə gənclər proqramı" kimi də tanınan layihənin əsas hədəflərindən biri "Demokratik vətəndaşlıq və insan hüquqları təhsili üzrə Avropa Şurası Xartiyası"nın icrası prosesində gənclər sahəsində çalışan qeyri-hökumət təşkilatlarının rolunu dəstəkləmək və gücləndirməkdir. Buna nail olmaq üçün insan hüquqlarının təhsili üzrə vəsait və resursların hazırlanması və paylaşılması ilə yanaşı, təlimçilər, multiplayerlər və insan hüquqları təhsili üzrə vəkillər üçün bacarıq artırma tədbirləri də keçirilir. Layihə çərçivəsində "Kompas" və "Öz sözünü de" vəsaitlərinin Azərbaycan dilinə tərcüməsi və istifadəsi bu baxımdan mühüm rol oynayır.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev çıxışında bildirib ki, gənclərin iştirakı ilə insan hüquqlarının təhsili üzrə "Kompas" və gənclərin ictimai həyatda yerli və regional səviyyədə iştirakına dair "Öz sözünü de" təlimat vəsaitlərinin Azərbaycan dilinə tərcümə olunması gənclərin insan hüquqları mövzusunda maarifləndirilməsinə mühüm təkan verəcək. Gənclər və İdman Nazirliyi ilə Avropa Şurası arasında xüsusi ikitərəfli əməkdaşlıq fəaliyyətləri ilk dəfə olaraq Avropa Şurasının 2016-2017-ci illərdə Azərbaycan üzrə Fəaliyyət Planına daxil edilib. Bu fəaliyyət Azərbaycandan olan gənc liderlər və fəallar üçün bacarıq artırma tədbirləri, insan hüquqları təhsili və demokratik vətəndaşlıq layihələri üzrə qruplaşdırılıb.

Gənclərin Azərbaycanda həyata keçirilən dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil etdiyini deyən nazir müavini ölkəmizdə bu istiqamətdə görülən işlərdən danışıb.

İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Elmira Süleymanova bildirib ki, ümummilli lider Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra ölkəmizdə digər sahələrlə yanaşı, insan hüquqlarının təmin olunmasına da xüsusi diqqət yetirib. Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyasında bütün fundamental hüquqlar əksini tapıb.

Diqqətə çatdırılıb ki, insan hüquqları sahəsində problemlərdən biri də gender bərabərliyinin pozulmasıdır. Azərbaycanda bu istiqamətdə də mühüm tədbirlər həyata keçirilir, geniş maarifləndirmə işləri aparılır. İnsan hüquqlarının pozulmasının mərkəzində dayanan əsas məsələlərdən biri də zorakılıq olduğunu vurğulayan ombudsman qeyd edib ki, zorakılığın qarşısını almaq üçün həyata keçirilən tədbirlər səmərəli nəticələr verir. Uşaqların insan hüquqları sahəsində biliklərə yiyələnməsinin təmin olunması üçün geniş maarifləndirmə işləri aparılır. Ümumiyyətlə, Azərbaycanda insan hüquqları sahəsində sistemli iş həyata keçirilir. Azərbaycan Prezidenti tərəfindən imzalanan Milli Fəaliyyət Planı bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Xüsusi tapşırıqlar üzrə səfir Elşad İsgəndərov və Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova forumun təşkilinin və hər iki vəsaitin Azərbaycan dilində çapdan çıxmasının gənclərin insan hüquqları ilə bağlı biliklərinin artırılmasında rolunu vurğulayıblar.

Sonra "Kompas" və "Öz sözünü de" təlimat vasitələrinin Azərbaycan dilinə tərcümə edilmiş versiyaları təqdim olunub.

Daha sonra ortaq fəaliyyət çərçivəsində keçirilən seminarların iştirakçılarına sertifikatlar təqdim olunub.

Açılış çıxışlarından sonra Avropa Şurasının gənclər departamentinin təhsil və təlim şöbəsinin müdiri Rui Qomeş "Demokratik vətəndaşlıq və insan hüquqlarının təhsilinə dair Avropa Şurasının praktiki yanaşmaları" mövzusunda təqdimatla çıxış edib.

Qısa fasilədən sonra tədbir işini "Azərbaycanda insan hüquqlarının təhsili və gənclərin iştirakı - çağırışlar və perspektivlər" mövzusunda panel iclası ilə davam etdirib.

İclasda gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun direktoru, Avropa Şurasının Təhsil Siyasəti Məşvərətçiləri Şəbəkəsinin (EPAN) üzvü Vəfa Yaqublu və Ombudsman Aparatının hüquqi maarifləndirmə sektorunun müdiri Müqalib Mahmudov çıxış ediblər.

Sonda "Kompas" və "Öz sözünü de" təlimat vəsaitləri və onlardan istifadə qaydalarına dair seminar keçirilib.

# Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti incisinin təqdimatı olub





Heydər Əliyev Mərkəzində erkən dəmir dövrünə aid bəzək əşyalarının təqdimatı olub. Eksponatlar mərkəzdəki "Azərbaycan inciləri: tarixin axarında" sərgisində nümayiş etdiriləcək.

AZƏRTAC xəbər verir ki, bəzək əşyaları Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun Gəncə-Qazax bölgəsində apardığı arxeoloji kəşfiyyat işləri zamanı aşkar olunub. Təbii və antropogen təsirlər nəticəsində dağıntıya məruz qalmış qədim qəbir abidələrinin birində 52 ədəd qızıl məmulatı - yüksək ustalıqla hazırlanmış bir cüt sırğa, üzük, yarpaqşəkilli və boruşəkilli muncuqlar, asma bəzək əşyaları tapılıb.

Tapıntılar Azərbaycanın qədim tarixində mühüm bir mərhələni təşkil etmiş Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin son mərhələsinə aiddir.

Həmin mərhələ arxeoloji dövrləşmədə (eradan əvvəl II minilliyin ikinci yarısı - I minilliyin əvvəlləri) son tunc - erkən dəmir dövrü adlandırılır.

Bu bəzək əşyaları sayına və rəngarəngliyinə görə Azərbaycanın qədim tarixinə aid aşkar edilmiş qızıldan olan ən zəngin tapıntılardır.

Təqdimat zamanı çıxış edən Heydər Əliyev Mərkəzinin departament direktoru Məhəbbət Mehdiyeva bildirib ki, mərkəz fəaliyyətə başladığı ilk gündən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik ənənələrinin, irsinin araşdırılması, gənc nəsil arasında yaşadılması ilə yanaşı, mədəniyyət və incəsənətimizin təbliği ilə bağlı bir sıra layihələr həyata keçirib. Ziyarətçilərin ən çox üz tutduğu ekspozisiyalar sırasında olan "Azərbaycan inciləri: tarixin axarında" sərgisində nümayiş etdiriləcək bu eksponatlar vasitəsilə qonaqlara tariximiz barədə yeni məlumat çatdırılmış olacaq.

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru Maisə Rəhimova qeyd edib ki, instituta dövlət səviyyəsində göstərilən böyük diqqət sayəsində arxeoloji tədqiqatlar daha da genişlənir. O deyib: "Bu gün arxeoloji ekspedisiyalar nəticəsində yüzlərlə tarixi abidələr, maddi-mənəvi dəyərlər üzə çıxır. Bu tapıntılar bir daha Azərbaycanın ən qədim insan məskənlərindən, sivilizasiya mərkəzlərindən olduğunu göstərir".

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun direktor müavini Nəcəf Müseyibli bildirib ki, hazırda təqdimatı keçirilən bu arxeoloji tapıntılar hələ eramızdan əvvəl, 3000-2700 il bundan əvvəl Azərbaycanda qızıl metallurgiyasının yüksək inkişaf səviyyəsində olduğunu sübut edir və bu zinət əşyaları həmin dövrün araşdırılması baxımından yüksək tarixi dəyərə malikdir.

# Azərbaycanın mühüm siyasi və iqtisadi tərəfdaşı

## Belarusla əlaqələr strateji xarakter daşıyır

Azərbaycan Prezidenti cənab İlham Əliyevin ötən ayın 19-da Belarus Respublikasına etdiyi səfərin nəticələri iki dövlət arasındakı əlaqələrin mahiyyətini bir daha təsdiq etdi. Çünki bütün dünya gördü ki, Azərbaycan-Belarus münasibətləri möhkəm dostluğa, qarşılıqlı etimada və strateji tərəfdaşlığa əsaslanır. İki dövlətin prezidentlərinin səmimi dostluğu isə münasibətlərin məzmun və mahiyyətinin zənginliyinə impuls verir.



Ümumiyyətlə, MDB üzvü olan dövlətlərlə əməkdaşlığı gücləndirmək, sovet dövründə mövcud olan çoxşaxəli əlaqələri müasir dövrün tələbləri səviyyəsində inkişaf etdirmək rəsmi Bakının xarici siyasətində vacib məsələlərdən biri kimi nəzərdən keçirilir. Ulu öndər Heydər Əliyevin xarici siyasətdə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edən Prezident İlham Əliyev ötən 15 ildə postsovet respublikaları ilə münasibətlərə xüsusi önəm verib. Dövlət başçısının MDB-nin iqtisadi potensialına görə seçilən respublikalarından sayılan Belarusa son rəsmi səfəri bu nöqteyi-nəzərdən diqqəti cəlb edir. Bu səfər ikitərəfli əlaqələrə əlavə impulslar vermək, genişmiqyaslı əməkdaşlıq üçün mövcud potensialdan hərtərəfli yararlanmaq baxımından vacib əhəmiyyət kəsb edirdi.

Belarus güclü istehsal və hərbi-sənaye kompleksinə, tranzit əhəmiyyətinə görə indinin özündə də fərqli imkanlara malik respublikalardan sayılır. Sovetlər birliyi dövründən Azərbaycanla Belarus arasında mövcud olan çoxşaxəli əməkdaşlığın yeni mərhələdə davam etdirilməsi müştərək iqtisadi maraqların diktə etdiyi zərurətdir. Şübhəsiz, uzun illər vahid ailə kimi formalaşan, iqtisadi cəhətdən zəncirvarı şəkildə bağlı olan dövlətlərin bir-birindən təcrid vəziyyətdə yaşaması mümkün deyildir. Təsadüfi deyil ki, bu reallığı düzgün dəyərləndirən hər iki ölkənin rəhbərləri əlaqələrin genişləndirilməsinə daim mühüm önəm verir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin indiyədək Belarusa 5 dəfə, Belarus Prezidenti Aleksandr Lukaşenkonun isə Azərbaycana 4 dəfə rəsmi səfər etməsi də hər iki ölkənin rəhbərlərinin tərəfdaşlığa verdikləri önəmin göstəricisidir. Bundan əlavə, ayrı-ayrı vaxtlarda işgüzar səfərlər də edilib. Diplomatiyada və dövlətlərarası münasibətlərdə bu cür münasibətlər nadir hallarda müşahidə olunur. Bu da ondan xəbər verir ki, iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsində dövlət başçıları arasında səmimi dostluq, qarşılıqlı etimad və dialoq mühüm rol oynayır.

Azərbaycan-Belarus münasibətlərində qarşılıqlı siyasi etimadın formalaşmasının səbəblərindən biri də rəsmi Minskin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu prinsipial mövqedir. Belarus Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında Ermənistanın müttəfiqi sayılsa da, ərazi bütövlüyü məsələsində Azərbaycanın mövqeyini dəstəkləyir və bunu Prezident Aleksandr Lukaşenko daim bəyan edir.

Azərbaycanla Belarus arasındakı əlaqələrdə qarşılıqlı siyasi etimadın yaranmasının əsas səbəblərindən biri bu ölkənin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu mövqedir. Bəli, rəsmi Minsk bu məsələdə prinsipialdır və daim Azərbaycanı dəstəkləyir. Azərbaycanın təmsil olunmadığı qurumlarda da Belarus ədalətli mövqe ortaya qoyur. Bu ölkə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında təmsil olunsa da, ərazi bütövlüyü məsələsində Azərbaycanın mövqeyini dəstəkləyir. Prezident İlham Əliyev bununla bağlı deyib: “Əgər hər hansı beynəlxalq təşkilatda Belarusla, yaxud hər hansı rəhbər orqanlara namizədliyi irəli sürülən bu ölkədən namizədlə əlaqədar məsələ qaldırılırsa, Azərbaycan qeyd-şərtsiz dəstək göstərir. Eyni münasibəti biz Belarus tərəfdən də görürük. Bu, bizim münasibətlərimizin yüksək səviy-



yəsinin göstəricisidir. Biz həmçinin ya Azərbaycanın, ya da Belarusun iştirak etmədiyi, amma başqa ölkənin iştirak etdiyi təşkilatlarda da bir-birimizi dəstəkləyirik və bu da təbiidir. Bu, bizim beynəlxalq siyasət, beynəlxalq münasibətlər, regional problemlər və beynəlxalq təhlükəsizliklə əlaqədar məsələləri müzakirə etdiyimiz kimi təbiidir. Bütün bunlar dostlar arasında təbiidir”.

Səfər çərçivəsində siyasi, hərbi-texniki, humanitar və digər sahələrdə münasibətlərin inkişafına dair məsələlər diqqət mərkəzində oldu. Belarus ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlığın böyük potensialı var. Əlbəttə, Azərbaycan-Belarus münasibətlərinin əsas prioritetlərindən danışarkən iqtisadi əlaqələri xüsusilə qeyd etməmək qeyri-mümkündür. Çünki hər iki ölkə bir-biri üçün mühüm iqtisadi tərəfdaşlar sayılır. Hər iki dövlətin dinamik inkişaf yolunda olan iqtisadiyyatı, böyük istehsal potensialı, zəngin təbii sərvətləri qarşılıqlı marağı şərtləndirməklə çoxşaxəli əməkdaşlıq üçün daha fəal iş aparmağı zərurətə çevirir. Məhz buna görə də iqtisadi sahədə əlaqələr ildən-ilə dərinləşib, yeni əməkdaşlıq formatları yaranıb.

Təkcə bu ilin 9 ayında iki ölkə arasında əmtəə dövriyyəsinin həcminin 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,3 dəfə artması və 331,5 milyon dollara bərabər olması Azərbaycan-Belarus iqtisadi münasibətlərindəki dinamizmdən xəbər verir. Xarici iqtisadi amillərin müəyyən qədər təsirlərinə baxmayaraq, Azərbaycan və Belarus arasında iqtisadi sferada ciddi artım müşahidə olunub. Həmçinin Azərbaycan ixracatında 20 faizə yaxın artım qeydə alınıb. Son 4 ildə Azərbaycan Belarusa daha çox məhsul ixrac edib. İxracın artması nəticə etibarilə ölkəyə daxil olan valyutanın yüksəlməsinə də təsirini göstərib. Azərbaycan Belarusdan daha çox şəkər, meşə materialları, dərman vasitələri, kərə yağı və siqaret idxal edir. Eyni zamanda, Azərbaycan Belarusa tütün xammalı, polietilen ixrac edir. Bu məhsullar ixracda əsas paya malikdir.

Çünki iki ölkə arasında investisiya və birgə layihələrin reallaşdırılması imkanları kifayət qədər genişdir. Ona görə ötən ay Minskdə aparılan danışıqlar zamanı razılaşdırılmış məsələlər, iqtisadi əməkdaşlığın müxtəlif istiqamətləri üzrə yol xəritələri ölkələrimiz arasında onsuz da dinamizmi ilə fərqlənən əmtəə dövriyyəsini daha da artırmağa imkan verəcək. Bu mənada Prezident İlham Əliyevin Belarusa ötən ay reallaşan rəsmi səfəri iki ölkə arasında strateji əməkdaşlığın gücləndirilməsi və iqtisadi əlaqələrin genişləndirilməsi baxımından yeni bir mərhələnin əsasını formalaşdırır. Bu da iqtisadi və strateji baxımdan Azərbaycanla Belarusun daha da yaxınlaşmasına yol açacaq.

Azərbaycan-Belarus iqtisadi münasibətlərinin ən uğurlu göstəricilərindən biri maşınqayırma sahəsində “Gəncə Avtomobil Zavodu”nda həyata keçirilən birgə əməkdaşlıqdır. Xatırladım ki, “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyi Belarus müəssisələri ilə əməkdaşlığa 2006-cı ildən başlayıb. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı ilin oktyabrında Belarusa səfəri zamanı Minsk traktor və avtomobil zavodları ilə “Gəncə Avtomobil Zavodu” arasında əməkdaşlığın yaradılması barədə Belarusun dövlət başçısı ilə razılığa gəlindi. Bu razılığa əsasən Gəncə zavodu həmin müəssisələrlə uzunmüddətli əməkdaşlıq müqaviləsi bağladı. Bundan sonra “Gəncə Avtomobil Zavodu”nda ümumi ərazisi 20 min kvadratmetr olan sexdə təmir-bərpa işləri görüldü, yeni texnoloji yığım xətləri quraşdırıldı. Yeni sex müasir avadanlıqlar və texnika ilə təchiz olundu. Müqaviləyə uyğun olaraq 2007-ci ilin mart ayında Belarusdan daxil olan komplektləşdiricilərin əsasında “Belarus 80.1”, “Belarus 82.1”, “Belarus 1221”, “Belarus 1025”, “Belarus 892” və “Belarus 80X” modeldə traktorların istehsalına başlanıldı. Həmin ilin aprel ayından isə MAZ avtomobillərin yığımı təşkil olundu. İndiyədək 11 illik əməkdaşlıq çərşivəsində müəssisə tərəfindən “Belarus” traktorunun 10 modelinin (o cümlədən, ekskavatorlar, asfaltkəsən, qartəmizləyən texnikalar, traktor üçün qoşqular və istənilən növ asma avadanlıqlar və s.) və MAZ avtomobilinin 20 modelinin (o cümlədən, MAZ markalı avtomobillərin bazasında yanacaq və sudaşıyan maşınlar, yüküözüboşaldan, dartıcı avtomobillər, assenizasiya maşınları, təmir emalatxanaları və kommunal maşınları) yığım istehsalı mənimsənilib.

Ötən 11 ildə “Gəncə Avtomobil Zavodu”nun Belarus müəssisələri ilə ticarət dövriyyəsi 402 milyon ABŞ dolları məbləği təşkil edib. Bu dövrdə ümumilikdə müxtəlif modeldə 10 min 581 ədəd traktor (o cümlədən, pambıqyığan, kommunal, minitraktorlar və xüsusi təyinatlı texnika) və 3204 ədəd MAZ avtomobili (o cümlədən, su və yanacaqdaşıyanlar, yüküözüboşaldanlar, avtokranlar, “Haller” kommunal maşınları), 75 ədəd MAZ avtobusu, 360 ədəd MAZ avtomobil qoşqusu, 20 ədəd MZKT ağırtonnajlı yük dartıcısı yığılıb.

“Gəncə Avtomobil Zavodu” Belarusun digər müəssisələri ilə də işbirliyi yaradıb. Zavod Minsk Təkərli Dartıcılar Zavodu, Smorqon Avadanlıqlar Zavodu, Mozırsk Maşınqayırma Zavodu, Bobruysk Ehtiyat Hissələri və Avadanlıqlar İstehsalı Zavodu ilə sıx əməkdaşlıq edir. Bundan başqa, 2010-cu ildə Almaniyanın “Haller” şirkəti, Belarusun Minsk Avtomobil Zavodu və “Gəncə Avtomobil Zavodu” arasında üçtərəfli müqavilə imzalanıb. Bugünədək ümumilikdə 105 ədəd 21 kubmetr tutumlu Avro 4 standartına cavab verən kommunal maşın istehsal olunub.

2018-ci il aprelin 2-də müəssisədə onmininci traktor istehsal edildi. Bununla əlaqədar keçirilən tədbirdə Belarus Respublikasının Baş nazirinin müavini Vladimir Semaşko, Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Minsk traktor və avtomobil zavodlarının baş direktorları iştirak ediblər. Qonaqlar zavodun fəaliyyətini yüksək qiymətləndirib, texniki və kadr potensialında perspektivlərdən söz açıblar.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə “Gəncə avtomobil zavodu” İB-in 11 işçisi “Tərəqqi” medalı, 3 nəfəri isə “Əməkdar mühəndis” fəxri adı ilə təltif olunub.

“Gəncə Avtomobil Zavodu” bu ili də uğurla başa vurur. 2018-ci il yanvarın 1-dən dekabrın 1-nə qədər müəssisədə 1027 ədəd Belarus traktoru, 669 ədəd traktor qoşqusu, 57 ədəd KamAZ avtomobili, 100 ədəd URAL avtomobili, 64 ədəd qoşqulu su çəni, 9 ədəd “Haller” markalı məişət tullantıları daşıyan avtomobil istehsal olunub.

2019-cu ildə qarşımızda duran əsas vəzifələrdən biri istehsalın həcmini artırmaqla yeni iş yerlərinin açılmasına nail olmaq, zavodda Belarus markalı traktorlar, MAZ markalı avtomobillər ilə yanaşı, həmin texnikaların bazasında respublikamız üçün əhəmiyyətli olan bütün növ xüsusi təyinatlı maşınların istehsalını və eləcə də KamAZ, URAL avtomobillərin yığımının genişləndirilməsi istiqamətində işləri davam etdirməkdir.

Göründüyü kimi, Azərbaycan-Belarus iqtisadi münasibətlərində “Gəncə Avtomobil Zavodu”nun fəaliyyəti xüsusi yer tutur. Təsadüfi deyil ki, zavodda Belarus brendi olan müxtəlif nəqliyyat vasitələrinin istehsalı üstünlük təşkil edir. Bu ölkə ilə mövcud iqtisadi əməkdaşlıq müxtəlif təyinatlı nəqliyyat vasitələrini Azərbaycan üçün daha da əlçatan edib. Daim dövlətimizin və onun rəhbərinin diqqət və qayğısını hiss edən kollektiv istehsal sahələrini genişləndirməklə həm ölkəmizin maşın və mexanizmlərə olan ehtiyacını ödəyir, həm də yeni iş yerləri açmaqla əhalinin məşğulluğunu təmin edir.

***Xanlar FƏTİYEV,***
***Milli Məclisin deputatı***

# Azərbaycan beynəlxalq antikorrupsiya hərəkatının fəal üzvüdür

Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə respublikamızda korrupsiyaya qarşı sərt mübarizə aparılmaqla bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir. Ölkəmiz 140 dövləti birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) təşkilatçılarından biri kimi onun işində daim fəal iştirak edir.






AZƏRTAC xəbər verir ki, 9 dekabr - Beynəlxalq Antikorrupsiya Günü ərəfəsində Malayziyanın inzibati mərkəzi olan Putracaya şəhərində korrupsiyaya qarşı mübarizədə səylərin birləşdirilməsi mənasını daşıyan və təmiz əli təsvir edən “Korrupsiyaya yox” heykəlinin açılış mərasimi olub. Qətər Dövlətinin dəstəyi ilə quraşdırılan və sayca üçüncü olan bu heykəl 2016-cı ildə Cenevrədə, ötən il isə Vyanada ucaldılıb. Mərasimdə Malayziyanın Baş naziri Mahathir Məhəmməd, Qətərin Əmiri Şeyx Təmim bin Həməd Al Tani, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Yuri Fedotov iştirak ediblər.

Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov IAACA-nın vitse-prezidenti kimi xüsusi qonaq qismində həmin tədbirə qatılıb. Mərasimdən əvvəl ədliyyə naziri Qətərin Əmiri, Malayziyanın Baş naziri və BMT-nin yüksək təmsilçisi ilə görüşüb.

Sonra nazir Qətər Əmirinin təşəbbüsü ilə təsis olunmuş Beynəlxalq Antikorrupsiya təltifinin təqdimat mərasimində iştirak edib. Tədbirdə korrupsiya ilə mübarizədə innovativ təcrübələrin tətbiqinə, fundamental elmi təhlillərin aparılmasına və gənclərin antikorrupsiya tədbirlərində iştirakına görə ucaldılmış heykəli təcəssüm etdirən təltiflər təntənəli şəkildə təqdim olunub.

Həmin günlərdə Putracaya şəhərində Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının rəhbər orqanı olan İcraiyyə Komitəsinin iclası keçirilib. Tədbirdə təşkilatın fəaliyyətinə dair mühüm mövzular, xüsusilə assosiasiyanın Konstitusiyasına dəyişikliklərin edilməsi, qurumun perspektiv proqramı, maliyyə və digər təşkilati məsələlər müzakirə olunub.

İclasda çıxış edən F.Məmmədov Azərbaycanda dövlət siyasətinin prioriteti olan korrupsiyaya qarşı aparılan qəti mübarizə tədbirləri, o cümlədən Azərbaycan brendi olan “ASAN xidmət”in yüksək vətəndaş məmnunluğunu təmin edən fəaliyyəti barədə məlumat verib, müzakirə olunan məsələlərə dair bir çox təkliflər irəli sürüb. Bu təkliflər yekdilliklə qəbul edilib.

İclasda, həmçinin IAACA Konstitusiyasının yeni redaksiyası razılaşdırılıb və gələcək tədbirlər müəyyən olunub. O cümlədən korrupsiya ilə mübarizədə zərər çəkmiş şəxslərə dəstək göstərmək üçün IAACA-nın xüsusi maliyyə fondunun yaradılması qərara alınıb.

Tədbirdə Azərbaycanın beynəlxalq antikorrupsiya fəaliyyətində yaxından iştirakı, təşkilatın inkişafına və antikorrupsiya əməkdaşlığının genişləndirilməsinə verdiyi mühüm töhfələr təqdir olunub.

Eyni zamanda, iclasda ölkəmizdə 2018-ci ilin “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan edilməsi ilə əlaqədar video və foto slaydlarla müşayiət olunan xüsusi təqdimat keçirilib. Ədliyyə naziri Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən və həmin dövrdə qəbul edilən mütərəqqi demokratik qərarlardan, habelə ölkəmizin bugünkü nailiyyətlərindən danışıb. Xüsusilə Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolundan, ümummilli lider Heydər Əliyevin bu sahəyə qayğısından bəhs edən F.Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mütərəqqi ədliyyə və məhkəmə-hüquq islahatları barədə məlumat verib. Azərbaycanın bu sahədə uğurlarının BMT, Avropa Şurası, Dünya Bankı, Beynəlxalq Qızıl Xaç Komitəsi və s. mötəbər beynəlxalq təşkilatlar tərəfindən təqdir edildiyi, o cümlədən Avropa Şurasının “Ədliyyənin Kristal Tərəzisi” müsabiqəsinin mükafatına layiq görüldüyü qeyd olunub. Həmçinin mütərəqqi nailiyyətlərimizin beynəlxalq aləmdə növbəti etirafının təzahürü olaraq Azərbaycan nümayəndəsinin Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) prezidenti vəzifəsinə yenicə seçildiyi vurğulanıb.

Çıxış zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin acı həqiqətləri xüsusi olaraq iştirakçıların diqqətinə çatdırılıb.

Təqdimatdan sonra IAACA İcraiyyə Komitəsinin üzvlərinə Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunan xatirə rəmzləri təqdim edilib.

Səfər çərçivəsində Azərbaycanın ədliyyə naziri bir sıra dövlətlərin hüquq mühafizə orqanlarının rəhbərləri ilə görüşlər keçirərək antikorrupsiya sahəsində birgə fəaliyyətə dair faydalı danışıqlar aparıb.

Tədbirlərdə Azərbaycanın Malayziyadakı səfiri Qaley Allahverdiyev də iştirak edib.

# Azərbaycan dəniz nəqliyyatı sahəsində beynəlxalq əməkdaşlığı genişləndirir







Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin direktoru Qüdrət Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti baş qərargahı London şəhərində yerləşən, BMT-nin nüfuzlu orqanı olan Beynəlxalq Dəniz Təşkilatının (BDT) Dəniz Təhlükəsizliyi Komitəsinin 100-cü sessiyasında iştirak edib.

### Yubiley sessiyası

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının şahzadəsi Anna Elizabet Alisa Luizanın dəvət olunduğu mötəbər tədbir “Beynəlxalq Dəniz Təşkilatının 70 illiyi”nə və “Dəniz Təhlükəsizliyi Komitəsinin 100-cü sessiyası”na həsr olunmuşdu. Sessiya iştirakçılarına uğurlar arzu edən şahzadə dəniz nəqliyyatı sahəsində Beynəlxalq Dəniz Təşkilatının həyata keçirdiyi səmərəli fəaliyyəti yüksək qiymətləndirdi. Onun sözlərinə görə, Beynəlxalq Dəniz Təşkilatının Dəniz Təhlükəsizliyi Komitəsi bu mötəbər təşkilatın əsas komitələrindən biri hesab olunur.

Sessiyada dənizdə təhlükəsizliyin artırılmasına dair tədbirlər, nəzarət tələb olunmadan idarə edilən gəmilərin istifadə edilməsi üzrə tənzimləyici qaydalar, yeni inşa edilən gəmi standartları, qütb sularında istismar edilən və “Dənizdə insan həyatının mühafizəsinə dair” Beynəlxalq Konvensiyanın tələbləri tətbiq olunmayan gəmilər üçün təhlükəsizlik tədbirləri, dəniz mühitinin çirklənməsinin qarşısının alınması ilə bağlı fəaliyyət, gəmi sistem və avadanlığı, insan faktoru, təlim və növbəçəkmə, yüklərin və konteynerlərin daşınması, BDT-nin sənədlərinin tətbiq olunması, dəniz nəqliyyatı sahəsində yeni tədbirlərin həyata keçirilməsi üçün potensial imkanların artırılması, gəmilərə qarşı yönəlmiş quldurluq və silahlı basqın, dənizlə təhlükəli miqrant keçidi müzakirə olundu.

### Səmərəli görüşlər

Sessiyada yeni gəmilərin inşa edilməsinə dair standartların tətbiqi ilə bağlı Beynəlxalq Dəniz Təşkilatının Türk Loydunda apardığı yoxlamanın nəticələri müzakirə edildi. Yoxlama ilə əlaqədar Türkiyə tərəfinin təqdim etdiyi sənədə Azərbaycan nümayəndə heyətinin rəhbəri tərəfindən yüksək dəstək nümayiş olundu. Müzakirələrdən sonra Türk Loydunun standartlara uyğun fəaliyyəti sessiya iştirakçılarının səs çoxluğu ilə qəbul edildi.

Sessiya zamanı dəniz üzgüçülüyü təhlükəsizliyinin təmin edilməsi sahəsində üzv dövlətlərin və təşkilatların təklifləri, təqdim olunan sənədlər nəzərdən keçirildi.

Azərbaycan nümayəndə heyətinin Beynəlxalq Dəniz Təşkilatının rəsmiləri, sessiyaya qatılmış bir sıra üzv dövlətlərin nümayəndə heyətləri ilə keçirdiyi ikitərəfli görüşlərdə son illərdə Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri İlham Əliyevin düşünülmüş, çevik və qətiyyətli iqtisadi siyasəti sayəsində Azərbaycanın beynəlxalq aləmdə yeni-yeni uğurlara imza atdığı, iqtisadiyyatımızın bütün sahələri kimi, dəniz nəqliyyatı sahəsinin də inkişafının təmin edildiyi vurğulanıb.

Görüşlər zamanı qarşılıqlı əməkdaşlığın daha səmərəli və effektiv həyata keçirilməsi, habelə dəniz nəqliyyatı sahəsi ilə bağlı ölkəmiz üçün əhəmiyyətli olan bir sıra mühüm məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sessiya zamanı “Beynəlxalq Dəniz Medalı” və “Dənizdə göstərdiyi şücaətə görə Medal”ı sahiblərinə təqdim olundu. Sessiyanın sonunda 2019-cu il üçün sədr və sədr müavinləri seçildi.

### Mükəmməl Azərbaycan təcrübəsi

Qeyd edək ki, əlverişli coğrafi mövqeyə sahib olan müstəqil Azərbaycan son 15 ildə etibarlı nəqliyyat dəhlizinin yaradılması istiqamətində mühüm işlər görür. Dəniz nəqliyyatına böyük investisiyalar yatırmaqla infrastrukturunu möhkəmləndirən ölkəmiz regionda əlverişli logitik bağlantı yaradır. Xüsusən də dəniz nəqliyyatı sisteminin müasirləşdirilməsi Azərbaycanı Avrasiya məkanının ən mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevirib.

Ölkəmizin Avrasiyanın əhəmiyyətli nəqliyyat-logistika mərkəzlərindən biri kimi özünü təsdiq etməsinə yönəlmiş irimiqyaslı infrastruktur layihələri, ən yeni texnoloji standartlar səviyyəsində müəssisələrin istifadəyə verilməsi son illər Azərbaycanda bu istiqamətdə məqsədyönlü strateji planın uğurla reallaşdırılmasının bariz nümunələridir. Əlverişli investisiya iqliminin mövcud olduğu Azərbaycan bu gün Xəzər hövzəsində ən böyük ticarət donanmalarından birinə sahibdir. Hazırda 200-dən çox gəmi Xəzər sularında yükdaşımalar aparır.

Ümumiyyətlə, dünya ticarət məhsullarının 80 faizdən artıq hissəsinin təhlükəsiz, maddi cəhətdən sərfəli və ətraf mühitə daha az mənfi təsir göstərməklə daşınması məhz dəniz nəqliyyatı vasitəsilə həyata keçirilir. Dəniz nəqliyyatının inkişafı ilə əlaqədar bütün dünya dövlətləri tərəfindən qəbul olunan və riayət edilən, dənizçilik münasibətlərini tənzimləyən tələblərə və normalara daim ehtiyac duyulub.

İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə də etibarlı təminat verir.

### Davamlı islahatların uğurları

Tarixi inkişaf yolu keçən dəniz nəqliyyatı bütün zamanlarda öz əhəmiyyətliyini saxlayıb. Azərbaycanın müstəqillik qazandıqdan sonra dəniz nəqliyyatı sahəsinin tənzimlənməsi istiqamətində apardığı iş mühüm səciyyə daşıyır.

Prezident İlham Əliyevin bu sahədə apardığı məqsədyönlü islahatlar nəticəsində dəniz nəqliyyatı yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülmüş işlər də xüsusi qeyd edilməlidir.

Azərbaycanın dəniz nəqliyyatı sahəsində qazandığı nailiyyətlər ölkəmizə səfər edən müstəqil beynəlxalq ekspertlər, habelə Beynəlxalq Dəniz Təşkilatı və Avropa Dəniz Təhlükəsizliyi Agentliyi tərəfindən müsbət dəyərləndirilir.

Azərbaycanda gəmiçilik sahəsində mövcud infrastrukturun təkmilləşdirilməsi, habelə regionda ən iri, müasir və güclü potensiala malik milli gəmiqayırma zavodunun tikintisi dəniz nəqliyyatı sahəsinə dövlət tərəfindən göstərilən dəstəyin bariz nümunəsidir.

***Fərizə ƏHMƏDOVA,***
***“Azərbaycan”***

# Azərbaycan iqtisadiyyatında fundamental keyfiyyət dəyişiklikləri

## Son 15 il ölkəmizin müstəqillik tarixinin ən uğurlu və ən şanlı səhifəsidir

### Ölkəmiz strateji nəqliyyat qovşağına çevrilib

Son 15 ildə Azərbaycan 3 qitəni və 3 dənizi birləşdirən nəhəng transkontinental neft-qaz və nəqliyyat-kommunikasiya layihələrinə imza atmışdır ki, bununla da ölkəmiz mühüm əhəmiyyət kəsb edən beynəlxalq enerji-kommunikasiya mərkəzinə, strateji nəqliyyat qovşağına çevrilmişdir: Nəhəng transmilli enerji layihələri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, təzəcə açılışını etdiyimiz “Cənub qaz dəhlizi” və onun tərkib hissəsi olan “Şahdəniz 2” layihəsi, Cənubi Qafqaz boru kəməri, TANAP qaz ixrac kəməri, yekunlaşmaqda olan TAP qaz ixrac kəməri, dünyanın enerji xəritəsini dəyişməklə, Avropanın enerji təhlükəsizliyində mühüm layihələrdən olmaqla, uzun müddət ölkəmizə milyardlarla valyuta gəlirlərinin gəlməsini təmin etməklə yanaşı, Azərbaycanı yaxın coğrafiya üçün, eləcə də Avropa üçün çox əhəmiyyətli ölkəyə çevirir.

2017-ci il sentyabrın 14-də ümummilli lider Heydər Əliyev dühasının möhtəşəm nailiyyəti olan, XX əsrin neft sənayesi tarixinin ən nəhəng müqaviləsi sayılan “Əsrin müqaviləsi”nin başa çatmasına 7 il qalmış onun fəaliyyət müddətinin daha əlverişli şərtlərlə 2050-ci ilədək uzadılmasını nəzərdə tutan, dünyanın ən məşhur 8 neft şirkəti ilə SOCAR arasında daha bir nəhəng, qlobal əhəmiyyətli - beynəlxalq ictimaiyyət tərəfindən “Yeni əsrin müqaviləsi” adlandırılan Sazişin imzalanması Azərbaycanın müstəqillik tarixinin çox əlamətdar hadisəsi olaraq İlham Əliyev dövrünün ən mühüm uğurlarından biri kimi dəyərləndirilməlidir. Bu saziş mübaliğəsiz olaraq, Prezident İlham Əliyevin 15 illik hakimiyyəti dövründə apardığı müstəqil, uzaqgörən, birmənalı şəkildə Azərbaycan xalqının milli mənafelərinə xidmət edən, gələcəyə - uzunmüddətli perspektivə hədəflənmiş müdrik siyasətinin təntənəsi kimi şərh olunmalıdır.

Azərbaycan dövlətinin belə bir nəhəng sazişə imza atması ən azı 2050-ci ilə qədər ölkəmizin davamlı və dayanıqlı iqtisadi və sosial inkişafı üçün zəmanət yaratmaqla, həm də Azərbaycanın neft strategiyasında yeni eranın başlanğıcını qoydu. Bu nəhəng transregional enerji müqaviləsinin son illərdə qlobal iqtisadiyyatda müşahidə olunan qeyri-stabil şərait fonunda baş tutması, birmənalı olaraq ölkə rəhbərimiz cənab İlham Əliyevin məharətli idarəçiliyini və regiondakı güclü lider obrazını bir daha təsdiq edir.

“Yeni əsrin müqaviləsi”nin imzalanması sentyabr ayının ilk günlərində bəzi xarici mətbuatlarda Azərbaycan hakimiyyətinə qarşı səsləndirilən bütün qarayaxmalara da çox tutarlı cavab oldu. Bütün bu siyasi təzyiqlərə, toqquşan maraqlara baxmayaraq, nəhəng qlobal neft şirkətlərinin Azərbaycana uzunmüddətli dövr ərzində böyük miqdarda investisiya qoyuluşunu həyata keçirməsi dünya birliyinin Azərbaycan Prezidentinə, Azərbaycan iqtidarına olan inamının, etibarının ən bariz göstəricisi oldu, eyni zamanda İlham Əliyevin cəsarətini, güclü siyasi iradəsini, Azərbaycanın necə etibarlı beynəlxalq tərəfdaş olduğunu bütün dünyaya nümayiş etdirdi.

“Əsrin müqaviləsi”nin 23 illik fəaliyyəti (1994-2017) dövründə 33 milyard dollar həcmində sərmayə qoyuluşu ilə 440 milyon ton neft hasil edilərək ölkəmizə 125 milyard dollardan çox birbaşa mənfəət qazandırmış “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının potensialının yarısından çoxunun hələ istifadə edilmədiyini nəzərə alsaq, onda yeni sazişin ölkəmizin sosial-iqtisadi rifahına verəcəyi misilsiz töhfələr əvəzedilməz hesab edilməlidir. Belə ki, “Yeni əsrin müqaviləsi”nin şərtlərinə görə, fəaliyyət göstərəcəyi 32 il ərzində əlavə olaraq 40 milyard dollar həcmində investisiya qoyuluşları, 3,6 milyard dollar məbləğində bonusun dövlətə ödənilməsi, 500 milyon tondan çox neft hasilatının proqnozlaşdırılması, neftlə yanaşı hasil ediləcək səmt qazının tamamilə Azərbaycana məxsus olacağı nəzərdə tutulur. Mənfəət neftindən 75 faizlik payın əldə edilməsi və SOCAR-ın payının 2 dəfədən çox artaraq 11,65 faizdən 25 faizə yüksəldilməsi, xeyli sayda yeni iş yerlərinin yaradılması ölkə iqtisadiyyatının dinamik inkişafına səbəb olacaq böyük multiplikativ effektlər doğuracaqdır.

Eləcə də 40 milyard ABŞ dolları həcmində sərmayə qoyuluşu nəzərdə tutulan və indiyə qədər 31,4 milyard dolları sərf edilən, uzunluğu 3500 kilometr və 4 seqmentdən ibarət olan “Cənub qaz dəhlizi” layihəsini xüsusi olaraq vurğulamaq lazımdır. Artıq layihənin 3 seqmenti üzrə işlər, demək olar ki, yekunlaşmışdır. Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz-2” yatağından hasil olunacaq qazın bu ilin sonlarında Türkiyəyə, 2020-ci ilədək isə Avropaya nəql edilməsi planlaşdırılmışdır. Türkiyə və Avropanın enerji təhlükəsizliyi baxımından böyük əhəmiyyət daşıyan bu layihə Azərbaycanı qaz ixrac edən ölkə kimi də dünya enerji bazarında mövqeyini gücləndirəcək və ildə 31 milyard kubmetrə qədər artırılması proqnozlaşdırılan qaz ixracı ölkəmizə böyük həcmdə gəlir - valyuta daxilolmalarını təmin edəcəkdir.

(Əvvəli qəzetin 9 dekabr tarixli nömrəsində)

Eyni zamanda istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, yeni Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolu, tikintisi yekunlaşmaqda olan Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti “Şərq-Qərb”, “Şimal-Cənub” və “Cənub-Qərb” nəqliyyat dəhlizlərinin Azərbaycanda kəsişməsini və inteqrasiyasını təmin edərək ölkəmizi beynəlxalq nəqliyyat qovşaqlarından, logistika mərkəzlərindən birinə çevirir. Belə qlobal əhəmiyyətli nəhəng layihələrin reallaşdırılması ilə Azərbaycanın Avrasiya geoiqtisadi məkanının bütün istiqamətləri arasında rəqabətqabiliyyətli və effektiv əlaqəni təmin edən “qitələrarası körpü” statusunu qazanması ölkəmizin iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amilə çevrilməklə yanaşı, onun geosiyasi mövqeyini gücləndirəcək, regional təhlükəsizliyə və inkişafa mühüm töhfələr verəcəkdir.

Bu 15 ildə Azərbaycanın iqtisadi və sosial inkişafının, innovasiyalara əsaslanan yeni iqtisadiyyatının formalaşması, kosmik sənayenin yaradılması, yüksək elmi-texnoloji sıçrayışın və uğurlu xarici siyasətinin məntiqi nəticəsi olaraq, ölkəmizin qısa bir müddətdə zəif inkişaf etmiş keçid iqtisadiyyatlı bir ölkədən, dünyanın məhdud saylı, inkişaf etmiş olkələrinin təmsil olunduğu kosmik ölkələr statusuna yüksəlməsi İlham Əliyev siyasətinin ən möhtəşəm nailiyyətlərindən biri kimi qiymətləndirilməlidir. Bütün bu nailiyyətlər son on beş ildə Azərbaycan reallığında arzuların gerçəkləşməsi, xəyalların reallığa çevrilməsi kimi də dəyərləndirilə bilər.

Bu sahədə 2008-ci ildə “Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında” Azərbaycan Respublikası Prezidentinin sərəncamı və buna uyğun olaraq 2009-cu ildə “Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq olunması və reallaşdırılması ölkəmizdə yüksək texnologiyaların tətbiq olunmasına, kosmik sənayenin yaradılmasına, müasir kosmik layihələrin həyata keçirilməsinə təkan verdi. Məlum olduğu kimi, cənab İlham Əliyevin 15 illik prezidentliyi dövründə “Azərkosmos” Açıq Səhmdar Cəmiyyəti yaradılmış, üç peyk - 2013-cü ilin fevral ayında “Azerspace-1”, 2014-cü ilin dekabr ayında “Azersky”, 2018-ci ilin sentyabr ayında “Azerspace-2” peykləri orbitə çıxarılmışdır. Bu peyklərin orbitə çıxarılması Azərbaycanı magistrallarının kəsişdiyi çoxölçülü informasiya-kommunikasiya məkanına çevirərək, onun geoiqtisadi funksiyalarını genişləndirmiş, xarici ölkələrdən informasiya asılılığını aradan qaldırmış və informasiya təhlükəsizliyini təmin etmişdir.

Hazırda Azərbaycan dünyanın 25 ölkəsində fəaliyyət göstərən 100-dən çox özəl və dövlət şirkətlərinə peyk xidmətləri göstərir və bu günə qədər bu xidmətlərdən əldə edilən gəlirlərin həcmi 104 milyon dollar təşkil etmişdir. Bu istiqamətdə ixracın genişləndirilməsi üçün mövcud olan böyük potensial növbəti illərdə daha çox özünü büruzə verəcək və təqribən 900 milyon dollardan çox vəsaitin daxil olmasını təmin edəcəkdir. Kommersiya xarakterli fəaliyyətlə yanaşı, peyklər ölkəmizin sosial-iqtisadi yüksəlişində, yeni elmi-tədqiqat sahələrinin yaranmasında, insan kapitalının inkişafında, beynəlxalq əməkdaşlığın genişləndirilməsində və s. müstəsna rol oynayacaqdır.

### İctimai və sosial xidmətlərin həcmi və keyfiyyəti yüksəlib

*Son 15 illik zaman kəsiyində baş verən uğurlu iqtisadi inkişaf prosesi ölkədə sosial sahədə də geniş islahatların aparılmasına və əhalinin sosial rifahının yüksəldilməsinə real imkanlar yaratmışdır.* Bütün bunların məntiqi nəticəsi olaraq, bu dövrdə nominal ifadədə əhalinin gəlirləri 8,6 dəfə, orta aylıq əməkhaqqı 7 dəfə, minimum əməkhaqqı 14,4 dəfə, pensiyalar 11,8 dəfə artmış, 2 milyona yaxın yeni iş yeri açılmış, yoxsulluğun səviyyəsi 5,4 faizə, işsizliyin səviyyəsi isə 5 faizə enmişdir. Ölkəmizdə sosialyönümlü bazar iqtisadiyyatı modelinin xarakterinə uyğun olaraq gəlirlərin yenidən bölgüsünü təmin edən dövlət büdcəsinin ildən-ilə əhəmiyyətli dərəcədə artması bütövlükdə ölkə iqtisadiyyatının çox sürətlə inkişaf etməsini göstərməklə yanaşı, bu inkişafın cəmiyyət həyatının bütün sahələrinə sirayət etməsinə geniş imkanlar yaratmışdır. Qeyd edək ki, 2003-cü illə müqayisədə 2018-ci ildə dövlət büdcəsinin gəlir və xərclərinin təqribən 18 dəfədən çox artması nəticəsində, bu dövr ərzində iri sosial, investisiya və infrastruktur layihələri həyata keçirilmişdir. Bütün bunların nəticəsi olaraq, hazırda Azərbaycan Respublikasının dövlət büdcəsi Cənubi Qafqaz ölkələri büdcəsinin 70 faizə qədərini təşkil edir ki, bu da ictimai həyatın bütün sferalarının inkişafında Azərbaycan dövlətinin işğalçı Ermənistanla müqayisədə ölçüyəgəlməz dərəcədə üstün olan gücünün və imkanlarının bariz göstəricisidir.

*Sosial rifah göstəricilərinin yüksək templərlə artmasına paralel olaraq əhaliyə göstərilən ictimai və sosial xidmətlərin həcmi və keyfiyyəti də əhəmiyyətli dərəcədə yüksəlməkdədir.* Bu istiqamətdə sosial innovasiyalara əsaslanan institusional mexanizmlərin yaradılması ölkəmizi dünya səviyyəsində nümunəyə çevirmişdir. Buna misal olaraq 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyinin təsis edilməsini, onun idarəçiliyində hazırda dünyada Azərbaycan brendi kimi tanınan “ASAN xidmət” mərkəzlərinin fəaliyyət göstərməsini xüsusi qeyd etmək lazımdır. Dövlət orqanlarının əhaliyə göstərdiyi xidmətləri vahid sistemdə birləşdirən bu mərkəzlərə indiyə qədər 24 milyona qədər müraciət daxil olmuş və xidmətlərin keyfiyyəti əhali tərəfindən yüksək qiymətləndirilmişdir. Eyni zamanda, “ABAD” (Ailə Biznesinə Asan Dəstək) mərkəzlərinin fəaliyyət göstərməsi və özünüməşğulluq proqramının icra olunması aztəminatlı ailələrin sosial yardımlardan asılılığının aradan qalxmasına və onların sosial fəallığının yüksəlməsinə şərait yaratmışdır. Bütün bunlar bir daha təsdiq edir ki, son 15 ildə ölkəmizdə həyata keçirilən sosial siyasətin xarakteri tamamilə dəyişmiş, sosial müdafiə və sosial təminat sferalarında əsaslı dönüşə nail olunmuşdur ki, nəticədə passiv sosial siyasətdən tədricən imtina edilərək aktiv sosial siyasətə keçid prosesinə başlanılmışdır. Hazırda bu istiqamətdə həyata keçirilən islahatlar uğurla davam etdirilməkdədir. Belə ki, əhalinin məşğulluğu, əmək, sosial müdafiə və sosial təminatı sahələrində idarəetmənin təkmilləşdirilməsi məqsədilə ölkə başçısının müvafiq sərəncamı ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi yaradılmış və onun idarəçiliyində “ASAN xidmət”in analoqu - DOST Mərkəzlərinin təşkili prosesinə start verilmişdir.

Bu gün ölkəmizdə, sözün əsl mənasında, vətəndaş həmrəyliyi mövcuddur, müxtəlif dinlərə, konfessiyalara, etnik qruplara mənsub olan insanların bir arada sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşaması üçün dövlət tərəfindən bütün şərait yaradılmışdır. 2003-2018-ci illər ərzində Azərbaycanda 220-dən çox məscid, kilsə, sinaqoqun tikilməsi, yaxud bərpa olunması və əsaslı surətdə yenidən qurulması bunun əyani sübutudur. Bunlarla yanaşı, ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək məqsədilə 2014-cü ildə “Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi” yaradılmış, mənəvi dəyərlərin qorunmasına və inkişafına, bu sahədə sosial layihələrin reallaşdırılmasına, həmçinin vətəndaşların dini etiqad azadlığının həyata keçirilməsinə dövlət dəstəyinin göstərilməsi məqsədilə 2017-ci ildə “Mənəvi Dəyərlərin Təbliği Fondu” təsis edilmişdir. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanılması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə 2016-cı il “Multikulturalizm ili”, İslam dünyasında həmrəyliyin bərqərar olmasında Azərbaycanın özünəməxsus mövqeyinin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə 2017-ci il “İslam həmrəyliyi ili” elan olunmuşdur. Eyni zamanda ölkəmizin paytaxtı Bakı şəhərində multikulturalizm, sivilizasiyalararası dialoq və tolerantlıq mövzusunda çoxlu sayda nüfuzlu beynəlxalq tədbirlər, konfrans və forumlar keçirilmişdir. Hazırda dünyanın 13, Azərbaycanın 28 ali təhsil müəssisəsində Azərbaycan multikulturalizmi kursu tədris olunur. Göründüyü kimi, Azərbaycan bu 15 il ərzində dünyada multikulturalizmin inkişafına böyük töhfələr verən nadir ölkələrdən birinə çevrilmişdir.

Bu istiqamətdə cənab İlham Əliyevin şəxsi təşəbbüsü sayəsində 2008-ci ildən reallaşdırılmağa başlayan “Bakı Prosesi”ni xüsusilə qeyd etmək lazımdır ki, bunun da müxtəlif sivilizasiyalar və xalqlar arasında dialoq və əməkdaşlığın inkişaf etdirilməsində müstəsna əhəmiyyəti beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilmiş və böyük rəğbətlə qarşılanmışdır. Eləcə də 2009-cu ildə Bakı şəhərinin və bu il isə Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı elan olunması, xüsusilə 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi və bu mötəbər, çoxmillətli, multi-idman turnirində ilk dəfə olaraq 54 müsəlman ölkəsini təmsil edən 3 mindən çox idmançının iştirak etməsi Azərbaycanın islam dünyasındakı nüfuzundan və dünya müsəlmanlarının həmrəyliyinin gücləndirilməsi istiqamətində özünəməxsus əhəmiyyətli mövqeyindən xəbər verir. Beləliklə, təsadüfi deyil ki, son 15 ildə *Azərbaycan beynəlxalq humanitar, mədəni, sivilizasiyalararası dialoq, multikulturalizm mərkəzlərindən birinə çevrilərək dünya birliyində yeni dəyər, yeni status qazanmışdır.* Azərbaycan bu illər ərzində milli, mənəvi dəyərlərini zənginləşdirməklə yanaşı, ümumbəşəri dəyərlərə və qlobal xarakterli problemlərin həllinə də çox mühüm töhfələr vermişdir. Bu gün Azərbaycan etibarlı tərəfdaş, qlobal və regional sülh, təhlükəsizlik, əməkdaşlıq və inkişaf təşəbbüskarı, sivilizasiyalararası dialoq məkanı, tolerantlıq və multikulturalizm mərkəzi, xarici və daxili siyasətdə hər zaman humanizm və ədalətliliyə söykənən dövlət kimi dünyada tanınır və bu dəyərlər sisteminin nümunəvi daşıyıcısı kimi böyük nüfuz qazanmışdır.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, son 15 ildə *Azərbaycanda hüquqi-demokratik dövlət quruculuğu istiqamətində geniş islahatlar həyata keçirilmiş, bütün fundamental azadlıqlar (söz, sərbəst toplaşma, mətbuat, vicdan azadlığı və s.) tam təmin edilmiş, vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti üçün əlverişli şərait formalaşdırılmışdır.* Bu dövrdə dövlətçiliyimizin konstitusion əsaslarının təkmilləşdirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edən mütərəqqi addımlar atılmışdır. Bildiyimiz kimi, hər bir ölkədə Konstitusiya cəmiyyət həyatının iqtisadi, siyasi, sosial, mədəni və digər sahələrində yaranan münasibətləri tənzimləyən, dövlətin institusional sistemini və ölkənin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən, həmçinin vətəndaş cəmiyyətinin formalaşmasını, insan hüquqları və azadlıqlarını təmin edən ali qanunvericilik sənədi hesab edilir. Xalqımızın xoşbəxtliyi ondadır ki, müstəqil Azərbaycanın Konstitusiyasının hazırlanması ulu öndər Heydər Əliyevə nəsib olmuş və o, bu missiyanın öhdəsindən çox məharətlə və uzaqgörənliklə gəlmişdir. Beləliklə, 1995-ci ildə Azərbaycan Respublikasının yeni Konstitusiyasının qəbulu müstəqillik tariximizin şərəfli səhifələrindən biri olmaqla, müasir Azərbaycan dövlətçiliyinin inkişafında müstəsna rol oynamış və oynamaqdadır.

Zaman-zaman dünyada baş verən qlobal çağırışlara, dinamik dəyişən geosiyasi şəraitin xarakterinə, ölkədə həyata keçirilən köklü islahatlara adekvat olaraq ümummilli inkişaf maraqları kontekstində referendumlar yolu ilə Konstitusiyaya əhəmiyyətli dəyişikliklər qəbul edilmişdir. Bu dəyişikliklər nəticəsində ölkədə seçki sistemi daha da təkmilləşdirilmiş, insan hüquq və azadlıqlarının təminatı gücləndirilmiş, dövlətin sosial məsuliyyətinin artırılması, yerli özünüidarənin inkişafı və s. istiqamətində mütərəqqi dəyişikliklər baş vermişdir. Xüsusilə 2016-cı ildə qəbul edilən sonuncu dəyişikliklər bugünkü Azərbaycan cəmiyyətində mövcud olan ictimai-siyasi və iqtisadi sabitliyi qoruyub saxlamaq, dövlət hakimiyyəti institutlarının fəaliyyətini, dövlət təhlükəsizliyi və ordu quruculuğunu təkmilləşdirmək, vətəndaşların hüquq və azadlıqlarının təminatını gücləndirmək, gənclərin ölkənin ictimai-siyasi həyatında daha fəal iştirakını təmin etmək, mülkiyyət və əmək münasibətlərində səmərəliliyi və sosial məsuliyyəti artırmaq istiqamətində səmərəli islahatlar həyata keçirməyə əlverişli hüquqi təminat yaratmışdır.

### Dövlət idarəçiliyi sistemi daha da təkmilləşdirilir

2016-cı il referendumunun ən mühüm nəticələrindən biri də ölkəmizdə dövlət idarəçiliyi sisteminin daha da təkmilləşdirilməsinə xidmət edən Vitse-prezidentlik institutunun təsisi olmuşdur. Məhz bu mütərəqqi dəyişiklik nəticəsində 21 fevral 2017-ci il tarixində Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi Azərbaycanın ictimai-siyasi həyatında müstəsna əhəmiyyət kəsb edən çox müdrik bir qərar olmuşdur. Belə ki, o, bu dövrə qədər Azərbaycanın birinci xanımı, Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının sədr müavini, Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyət Fondunun və Azərbaycan Gimnastika Federasiyasının prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri kimi gördüyü genişmiqyaslı və çoxşaxəli işlərlə özünü nəinki Azərbaycanda və yaxın coğrafiyada, eləcə də dünyada böyük nüfuza sahib olan dövlət xadimi kimi tanıtmış və təcrübəli siyasətçi, yüksək idarəetmə və təşkilatçılıq məharətinə malik səriştəli dövlət adamı kimi tamamilə doğrultmuşdur. Ölkə ictimaiyyəti tərəfindən də birmənalı şəkildə müsbət qarşılanan bu qərar, hər şeydən öncə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, milli təhlükəsizliyimizin qorunmasına və Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinə xidmət edəcəkdir. Mehriban xanım Əliyevanın yeni, yüksək məsuliyyət tələb edən Birinci vitse-prezident vəzifəsinə təyin olunması, eyni zamanda, Azərbaycan qadınının cəmiyyətdəki rolunun artırılmasına, xalqımızın sosial, mədəni rifahının və ölkəmizin beynəlxalq nüfuzunun yüksəldilməsinə əhəmiyyətli töhfələr verməklə, prezidentlik institutunu da gücləndirərək dövlətçilik tariximizə yeni mərhələ kimi daxil olacaqdır.

Dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi və effektivliyinin yüksəldilməsi ilə yanaşı, bu dövrdə həyata keçirilmiş islahatların məntiqi nəticəsi olaraq ölkəmizdə formalaşdırılmış tam demokratik və şəffaf şəraitdə minlərlə vətəndaş cəmiyyəti institutları - siyasi partiyalar, qeyri-hökumət təşkilatları, kütləvi-informasiya vasitələri (KİV), həmkarlar ittifaqları, sahibkarlıq subyektləri azad fəaliyyət göstərir, dövlət tərəfindən onların fəaliyyətini dəstəkləyən zəruri hüquqi, inzibati və maliyyə dəstəyi mexanizmləri tətbiq edilir. Hazırda ölkədə 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı, 2 milyona yaxın insanı birləşdirən həmkarlar ittifaqları sərbəst fəaliyyət göstərir. Hər il siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsinə dövlət büdcəsindən vəsaitlərin ayrılması, qeyri-hökumət təşkilatlarının bir çox layihələrinin dövlət tərəfindən qrant maliyyələşdirilməsi, KİV-in maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi, eləcə də onların mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər respublikamızda siyasi plüralizmin, söz və mətbuat azadlığının təmin olunmasına, bir sözlə vətəndaş cəmiyyəti quruculuğuna dövlətin diqqət və qayğısının bariz təzahürləridir. Ölkəmizdə siyasi, iqtisadi, sosial, mədəni sferalarda könüllü olaraq yaranan və fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları bu gün ictimaiyyəti maraqlandıran məsələlərə dövlət tərəfindən heç bir təzyiq olmadan azad şəkildə münasibət bildirir, ictimai müzakirələrə fəal surətdə cəlb olunur, qəbul ediləcək qanun layihələri ilə bağlı təkliflər və təşəbbüslər irəli sürür, maariflendirici layihələr həyata keçirirlər və beləliklə, vətəndaş maraqlarından çıxış edərək dövlət strukturları ilə effektiv münasibətlər qururlar.

*Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası dövlət quruculuğunun bütün istiqamətlərində olduğu kimi, xarici siyasət sahəsində də uğurlu addımlar atmışdır.* Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət strategiyası tarixi təcrübəni, geosiyasi reallıqları nəzərə alaraq, çoxvektorlu və tarazlaşdırılmış əsasda praqmatik və realist prinsiplərlə həyata keçirilir. Bu müstəqil siyasətin əsasını Azərbaycanın milli maraqları və ölkə vətəndaşlarının mənafeyinin və təhlükəsizliyinin qorunması təşkil edir. *Məhz bu prizmadan yanaşaraq milli maraqlara söykənən müstəqil xarici siyasət yürütməklə ölkəmiz dünyada etibarlı tərəfdaş kimi beynəlxalq siyasi nüfuzunu və çəkisini xeyli artırmış, regionda söz sahibinə, lider dövlətə çevrilmişdir.* Böyük güclərin çarpazlaşan maraqlarının Azərbaycanın milli mənafelərinə uyğun olaraq bu coğrafiyada balanslaşdırılması ölkə başçımızın yüksək intellekti, cəsarətli və uzaqgörən siyasəti nəticəsində mümkün olmuşdur. Ölkəmizin ikitərəfli və çoxtərəfli regional əməkdaşlıq formatlarında fəal iştirak etməsi və təşəbbüskarlığı, 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv və 2019-2022-ci illər üzrə Hərəkata sədrliyinin qəbul edilməsi, Avropa İttifaqına (Aİ) üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq əlaqələrinin qurulması və Aİ ilə “Tərəfdaşlıq prioritetləri” sənədinin imzalanması, Xəzərin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsi, sivilizasiyalar arasında dialoqun inkişafı naminə “Bakı Prosesi”nin reallaşdırılması Azərbaycanı regionda və dünyada nüfuzlu aktor və söz sahibi olan dövlətlər sırasında yerini kifayət qədər möhkəmləndirmiş və siyasi çəkisini xeyli artırmışdır.

İlham Əliyevin güclü siyasi iradəsi, müdrik və uzaqgörən siyasəti nəticəsində Azərbaycan günü-gündən dünyanın əksər ölkələri ilə siyasi, iqtisadi əlaqələrini və dostluq bağlarını gücləndirərək illər ərzində formalaşdırmış olduğu zəngin iqtisadi və infrastruktur potensialını, geosiyasi və geoiqtisadi mövqeyini, əhatə etdiyi coğrafiyanı böyük üstünlüklərə və inkişafı təmin edən faktorlara çevirə bilmişdir. Azərbaycanın xarici siyasətində qarşılıqlı faydalılıq prinsipi ilə yanaşı, dövlətlərarası çərçivədən çıxan və regional əhəmiyyət kəsb edən ikitərəfli əlaqələrin inkişafına və şaxələndirilməsinə xüsusi diqqət yetirilir. Eyni zamanda regional təhlükəsizlik, xüsusilə ölkənin milli təhlükəsizliyi əsas məqsədlərdən biri kimi müəyyən edilmişdir. Regional və milli təhlükəsizliyin təmin olunmasında əsas şərtlərdən biri də dövlət tərəfindən balanslaşdırılmış siyasətin uğurla həyata keçirilməsidir. Zəngin təbii sərvəti, əlverişli geosiyasi və geoiqtisadi mövqeyi ilə Azərbaycanın dünyanın güc mərkəzlərinin çarpazlaşan maraqları dairəsində olmasına baxmayaraq, İlham Əliyev müstəqil siyasi iradəsi ilə region ölkələri, xüsusilə də qonşu ölkələrlə strateji münasibətləri yüksələn xətlə inkişaf etdirərək, təşəbbüskarı və iştirakçısı olduğu transmilli enerji və nəqliyyat layihələrini uğurla reallaşdırmaqla bu maraqların balanslaşmasını böyük məharətlə təmin edə bilmişdir. Təbii ki, bu layihələr həm Azərbaycana, həm də iştirakçı ölkələrə böyük dividendlər, faydalar gətirir və şübhəsizdir ki, gələcək dövrlərdə də ölkəmizin regionda təhlükəsizliyinin təmin edilməsinə, səmərəli siyasi-iqtisadi əlaqələrinin inkişaf etdirilməsinə əhəmiyyətli töhfələr verəcəkdir.

Məhz 15 il ərzində xarici siyasət sahəsində əldə edilmiş uğurların nəticəsidir ki, Prezident İlham Əliyev hakimiyyətə gəldiyi gündən etibarən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə bağlı prinsipial mövqeyini yüksək siyasi iradəsi, intellekti və diplomatik məharəti sayəsində - BMT-nin Baş Assambleyası, ATƏT, AŞ PA, Avropa İttifaqının Parlament Assambleyası, İƏT və s. nüfuzlu beynəlxalq təşkilatların müvafiq sənədlərində əks olunmasına nail ola bilmişdir və bu da problemin yalnız ölkəmizin ərazi bütövlüyünün təmin olunması prinsipi ilə həllinin mümkünlüyü deməkdir. Eyni zamanda, *cənab İlham Əliyevin son dərəcə düşünülmüş və uzaqgörən siyasəti nəticəsində işğalçı Ermənistan bütün beynəlxalq layihələrdən təcrid edilərək, bu coğrafiya üçün əhəmiyyətsiz və inkişaf yolunda başlıca maneə yaradan ölkəyə çevrilmişdir.*

Böyük qürur hissi ilə qeyd edilməlidir ki, *Prezident İlham Əliyevin son illərdə Ali Baş Komandan kimi diqqət və qayğısı sayəsində ölkəmizin hərbi qüdrəti əhəmiyyətli dərəcədə yüksəlmişdir.* Bu il 26 iyun Azərbaycan Ordusunun 100 illiyi və 15 sentyabr Bakının işğaldan azad olunmasının 100 illiyi münasibətilə keçirilmiş iki möhtəşəm hərbi paradda ölkəmizin hərbi-müdafiə potensialının kiçik bir hissəsi Azərbaycan xalqına və dünyaya nümayiş etdirildi. Hazırda dünyada ən güclü 50 ordu sırasında Azərbaycanın Silahlı Qüvvələri də yer alır. Ordumuzun gücünün və döyüş qabiliyyətinin ən real təsdiqi isə Silahlı Qüvvələrimizin 2016-cı ilin aprel və 2018-ci ilin may aylarında qısa müddət ərzində minlərlə hektar ərazini işğalçılardan azad etməsidir. Qürurverici faktdır ki, döyüşlərdə əsasən yerli istehsal olan hərbi məhsullardan istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, hazırda ölkəmizdə 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir və eyni zamanda, istehsal olunan bu məhsullar daxili ehtiyaclarımızı tam ödəməklə yanaşı, dünyanın onlarla ölkəsinə ixrac olunmaqdadır ki, bu da ölkəmizin hərbi-strateji mövqeyinə keyfiyyətcə yeni məzmun qazandırmışdır.

Şübhəsizdir ki, əldə edilmiş bütün bu misilsiz nailiyyətlər qlobal siyasi-iqtisadi arenada böyük “nümayiş effekti” yaradaraq, bu gün Azərbaycanla strateji əməkdaşlığın inkişafında və dərinləşdirilməsində maraqlı olan ölkələrin diqqətini cəlb edir və sayını əhəmiyyətli dərəcədə artırır.

*Bütün bunlar bir daha təsdiq edir ki, cənab İlham Əliyev ötən dövr ərzində həyata keçirdiyi genişmiqyaslı, misilsiz işləri ilə həqiqətən də hər bir azərbaycanlının Prezidenti olduğunu tam təsdiq etmişdir. Azərbaycan ərazisinə, əhalinin sayına və iqtisadiyyatının həcminə görə böyük ölkə olmasa da, onun İlham Əliyev kimi böyük lideri, müdrik və uzaqgörən rəhbəri vardır.* ABŞ-ın nüfuzlu konqresmeni Kurt Ueldonun sözləri ilə desək: *“Bir çox xalqlar arzulayırlar ki, onların da cənab İlham Əliyev kimi bacarıqlı, 5 dildə danışa bilən, müxtəlif mövzulara dair geniş bilgilərə malik, geniş dünyagörüşlü lideri olsun. Hesab edirəm ki, bu mənada Azərbaycan xoşbəxt ölkədir, çünki bu ölkəyə İlham Əliyev kimi lider qismət olmuşdur”.* Məhz İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmizdə müasir, müstəqil Azərbaycan dövlətinin banisi ümummilli lider Heydər Əliyevin siyasəti yaşayır və cəmiyyətimizin həyatında, dünyada baş verən proseslərə, müasir dövrün tələb və çağırışlarına uyğun olaraq təkmilləşdirilir, modernləşdirilir və uğurla davam etdirilir. Heç bir alternativi olmayan bu ümummilli inkişaf yolu həm müasir Azərbaycanın memarı ümummilli lider Heydər Əliyevin, həm də 100 illiyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti qurucularının xalqımızın suveren və firavan gələcəyi ilə bağlı arzularını tam gerçəkliyə çevirməklə yanaşı, bizi daha böyük uğurlara, tərəqqiyə və ümumxalq rifahına aparır.

***Şəmsəddin HACIYEV,***
***Milli Məclisin deputatı,***
***YAP Səbail rayon təşkilatının sədri,***
***iqtisad elmləri doktoru, professor***

# Azərbaycan ilə Türkiyə arasında kənd təsərrüfatı sığortası üzrə əməkdaşlıq protokolu imzalanıb

Dekabrın 10-da kənd təsərrüfatı naziri İnam Kərimov Bakıda səfərdə olan Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirlinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüsüb.

AZƏRTAC xəbər verir ki, nazir İnam Kərimov qardaş ölkənin nümayəndələrinin Azərbaycanda ilk dəfə aqrar və yaşıl texnologiyalar üzrə "Ag-Tech and Green Energy" mövzusunda keçirilən beynəlxalq forumda iştirakını yüksək qiymətləndirib. Nazir bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ölkəmizdə qeyri-neft sektoruna göstərilən yüksək diqqətin nəticəsi kimi iqtisadiyyatın aparıcı sahələrindən olan aqrar sahə yeni inkişaf mərhələsinə qədəm qoyub, kənd təsərrüfatının inkişafı prosesində əhəmiyyətli nailiyyətlər edilib. Hazırda kənd təsərrüfatının aparıcı sahələrinə dair dövlət proqramları üzərində iş getdiyini xatırladan İnam Kərimov Azərbaycanın Türkiyə Respublikası ilə aqrar sahədə əməkdaşlıqda maraqlı olduğunu deyib. Onun sözlərinə görə, Azərbaycan Türkiyə ilə aqrar sığorta sisteminin tətbiqinə dair təcrübə mübadiləsi aparmaqda, toxumçuluq, fındıqçılıq və pambıqçılıq sahəsində əməkdaşlığı genişləndirməkdə maraqlıdır.

Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirli Azərbaycana dəvətə görə nazir İnam Kərimova təşəkkürünü bildirib. O qeyd edib ki, iki ölkə arasında kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsini genişləndirmək üçün böyük potensial var, amma real ticarət dövriyyəsi mövcud potensiala görə çox aşağıdır. Bekir Pakdemirli özəl sektorun qarşılıqlı ticarətdə rolunu artırmaqla bu potensialdan tam istifadə etməyin mümkün olduğunu deyib.

Dekabrın 11-də Bakıda keçiriləcək Azərbaycan-Türkiyə biznes forumunda iştirak etmək üçün Türkiyədən 65 iş adamının gəldiyini xatırladan Bekir Pakdemirli bu tədbirin əməkdaşlığın genişlənməsində mühüm rol oynayacağına əminliyini vurğulayıb. Türkiyənin toxumçuluq sahəsində böyük uğurlara imza atdığını deyən nazir əlavə edib ki, ölkəsi pambıqçılığın inkişafına önəm verir. "Hazırda Türkiyə özünü pambıq toxumu ilə tam təmin edir, toxumçuluq sahəsində imkanlarımızı pambıqçılığın inkişafında son dərəcə maraqlı olan Azərbaycanla bölüşə bilərik", - deyə nazir bildirib.

Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov iki ölkənin aqrar qurumlarının fındıqçılıq, texnologiyalar sahəsində də əməkdaşlıq edə biləcəyini, hər iki ölkənin aqrar sahədə ixtisaslaşmış təhsil müəssisələrinin mütəxəssis mübadiləsi apara biləcəyini deyib. Nazir əlavə edib ki, Bakıda keçiriləcək Azərbaycan-Türkiyə biznes forumu aqrar sahədə əməkdaşlığı dəyərləndirmək baxımından mühüm rol oynayacaq.

Görüşün sonunda nazirliklər arasında Kənd Təsərrüfatı Sığortası üzrə Əməkdaşlıq Protokolunun imzalanma mərasimi keçirilib. Protokolu Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov və Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirli imzalayıblar.

# Hesablama Palatası ilə Dünya Bankı arasında qarşılıqlı anlaşma sazişi imzalanıb

Dünya Bankı və Azərbaycan Respublikasının Hesablama Palatası arasında "Dövlət Satınalmaları sahəsində Tematik Audit Yoxlaması"nın planlaşdırılması və həyata keçirilməsi məqsədilə qarşılıqlı anlaşma sazişi imzalanıb.

Hesablama Palatasının mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sazişə əsasən Azərbaycan Respublikasının Hesablama Palatası ilə Dünya Bankı, bu maliyyə institutu tərəfindən maliyyələşdirilən layihələrin icra sonrası satınalmalar üzrə təhlilinin keçirilməsinə dəstək verilməsi, satınalmalar üzrə səmərəli audit yoxlamalarının aparılması üçün elektron forma, idarəetmə vasitələri və məlumatların təhlili üçün proqram təminatı ilə təchiz edilməsinə yönəldilməklə "Dövlət Satınalmaları sahəsində Tematik Audit Yoxlaması"nın planlaşdırılması və həyata keçirilməsi prosesinin əlaqələndirilməsi məqsədilə əməkdaşlıq edəcəklər.

Eyni zamanda, Dünya Bankı Azərbaycan Respublikasının Hesablama Palatasının əməkdaşlarının analitik qabiliyyət və bacarıqlarının gücləndirilməsi və analitikyönümlü proqram təminatının işlənib hazırlanması məqsədilə texniki yardım göstərməyi öz üzərinə götürüb.

İdarəçilik təcrübəsinin müasir beynəlxalq standartlara uyğunlaşdırılması Dünya Bankı və Azərbaycan Respublikasının Hesablama Palatası arasında uzunmüddətli və dayanıqlı münasibətlərin formalaşdırılmasına zəmin yaradacaq. Saziş imzalandığı tarixdən etibarən 2021-ci ilin dekabr ayınadək qüvvədədir.

# *Sergey LAVROV:* "Xəzərin hüquqi statusuna dair Konvensiya Xəzəryanı ölkələrin əməkdaşlığının inkişafına güclü təkan verəcək"

Aktauda keçirilmiş Xəzər sammiti Xəzər dənizinin hüquqi statusuna dair Konvensiya üzərində iyirmi ildən çox davam edən işə yekun vurdu. Hər şeydən əvvəl bunu Xəzərin bəxş etdiyi nemətlərdən - energetika və bioloji ehtiyatlardan, nəqliyyat imkanlarından daha çox səmərəli istifadə edilməsi tələb edirdi.

AZƏRTAC xəbər verir ki, bu sözləri Qazaxıstanın "Xabar" informasiya agentliyinə müsahibəsində Rusiyanın xarici işlər naziri Sergey Lavrov söyləyib.

Rusiyalı nazirin sözlərinə görə, konvensiyanın qəbulu üzrə əsas nailiyyət Xəzəryanı dövlətlər tərəfindən "Xəzər dənizi ilə əlaqəli bütün məsələlərdə" özlərinin tam məsuliyyətini təsdiq etməri olub. "Burada meydana gələn bütün məsələləri onlar özləri həll edəcəklər. Əlbəttə, regionun xaricindəki ölkələr də əməkdaşlığa dəvət olunur, lakin bu, beş Xəzəryanı dövlətin konvensiyada razılaşdırdığı şərtlər əsasında baş verə bilər", - deyə S.Lavrov vurğulayıb.

Nazir əlavə edib ki, konvensiyada hər bir Xəzəryanı dövlətə aid suveren və balıqçılıq zonasının müəyyən edilməsinin zəruriliyi ilə bağlı məsələlərin dədiqləşdirilməsi üzrə meyarlar öz əksini tapıb. O deyib: "Bu da çox böyük nailiyyətdir. Xəzər dənizi hövzəsində ekologiya və ətraf mühitin mühafizəsinin təmini, dənizdə təsərrüfatçılığın iqtisadi cəhətdən sərfəli və ekoloji baxımdan təhlükəsiz olması yolları və bir çox digər məsələlər müəyyənləşdirilib".

S.Lavrov vurğulayıb ki, konvensiya Xəzəryanı dövlətlərin iqtisadi, ekologiya, bioloji ehtiyatların gələcək nəsillərə çatdırılması sahələrində əməkdaşlığının inkişafına güclü təkan verəcək. "Əlbəttə, bu, sammitin böyük uğurudur", -deyə nazir əlavə edib.

# İlham Əliyevin Ermənistanın təcridi siyasəti effektiv nəticə verir

*Əvvəli 1-ci səh.*

Eyni zamanda söhbət çərçivəsində Ermənistan və Azərbaycan arasında əsir və girovların qarşılıqlı şəkildə dəyişdirilməsi məsələsi də müzakirə olundu. Məlumdur ki, Azərbaycan humanizm mövqeyindən çıxış edərək bütün əsir və girovların "hamının hamıya" prinsipi üzrə dəyişdirilməsini təklif edir. Ermənistan tərəfi isə bir daha qeyri-konstruktivliyini nümayiş etdirərək bu təşəbbüsdən qaçır. Prezident İlham Əliyev bir daha Azərbaycanın bu məsələdəki mövqeyini vurğulayaraq bildirib ki, "hamının hamıya" prinsipi əsasında dəyişdirmə tam olmalı və o cümlədən, Dilqəm Əsgərov və Şahbaz Quliyev onların arasında yer almalıdır. Çünki humanist xarakter daşıyan bu kimi addımlar danışıqlar prosesinə müsbət təsir göstərə bilər. ATƏT-in Minsk qrupunun həmsədrləri də bu mövqeyi dəstəkləyir və ona görə də Ermənistan tərəfi bunu nəzərə almalıdır. Azərbaycan Prezidentinin Paşinyanla söhbəti göstərir ki, dövlətimizin başçısı Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi üçün böyük səylər göstərir və bu məsələni daim diqqətdə saxlayır.

## Ermənistanın növbəti diplomatik məğlubiyyəti

MDB ölkələrinin qeyri-rəsmi toplantısından əvvəl Avrasiya İqtisadi İttifaqının sammitində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi məsələsi müzakirə olunub. Amma bu məsələ bir daha Ermənistanın məğlubiyyəti ilə yekunlaşıb. Belə ki, iclasda KTMT-nin baş katibi məsələsi ətrafında müzakirələr zamanı gərgin vəziyyət yaranıb. Ermənistan tərəfi baş katib vəzifəsinə nə qədər iddia etsə də, təcrid durumuna düşüb və digər üzv dövlətlər tərəfindən dəstəklənməyib. Prosesin gedişi göstərir ki, Ermənistanın baş naziri vəzifəsini icra edən N.Paşinyanın rəyi nəzərə alınmadan üzv dövlətlər tərəfindən bu barədə qərar qəbul olunacaq. Növbəti baş katib Belarusdan olacaq. Bu məsələ ümumilikdə Ermənistanın xarici siyasətinin və diplomatiyasının növbəti ağır məğlubiyyətidir.

Ermənistanın bu rüsvayçı məğlubiyyətində Azərbaycanın həyata keçirdiyi siyasət, Prezident İlham Əliyevin şəxsi nüfuzu kifayət qədər böyük rol oynayıb. Ermənistanın KTMT çərçivəsində alçaldılması Azərbaycanın növbəti diplomatik qələbəsidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Yeniliklər bəhrə verir

## İslahatlar kəndlinin həyat səviyyəsini, kəndin isə sosial simasını dəyişir

*Əvvəli 1-ci səh.*

Aqrar sektorda tətbiq edilən güzəşt və imtiyazların tam siyahısını isə sadalamağa xeyli vaxt lazım gələrdi. Bütün bunlar işini qurmaq, irəli getmək istəyən hər bir fermerə dövlətin ən böyük dəstəyidir.

Bu gün aqrar sektorda sovetlər dönəmindən qalma bir sıra arxaik idarəçilik mexanizmlərindən bir baza kimi faydalanaraq yeni münasibətlər sistemi qurulur. Kənd Təsərrüfatı Nazirliyinin rayon və şəhər idarələrinin ləğv edilərək dövlət aqrar inkişaf mərkəzlərinin (DAİM) yaradılması da bunun nəticəsidir. Kənd təsərrüfatı mütəxəssisləri bu addımı aqrar islahatların yeni mərhələsinin başlanğıcı kimi dəyərləndirirlər. Nazirliyin rayon və şəhər idarələrinin ləğv edilib, onların əsasında DAİM-lərin yaradılmasında məqsəd bir tərəfdən faydasız olan sovet idarəçilik sistemini aqrar sektorun inkişafında maneə kimi aradan götürməkdirsə, digər tərəfdən nazirliyin yerli bölmələrinin vahid mərkəzdən idarə olunması, fermerlərlə əlaqələrin gücləndirilməsi, elektron xidmətlər və innovativ texnologiyadan istifadə ilə bağlı maarifləndirmə işinin qurulmasıdır.

DAİM-in yaradılması aqrar sektorda xidmətlərin göstərilməsində də bir sıra yenilikləri sürətlə həyata keçirməyə imkan verir. "Vahid pəncərə" prinsipinin tətbiqi, şəffaflığın artırılması, fermerlərlə əlaqələrin qurulması mexanizminin təkmilləşdirilməsi aqrar sektorun intellektual bazasının inkişafını təmin edən yeniliklərdir.

DAİM-in nəzdində fermer və koordinasiya şuralarının yaradılması da kənd təsərrüfatında çalışanların işini xeyli asanlaşdırmağa xidmət edir. Birbaşa fermerlər və fermer assosiasiyalarının təmsilçilərindən təşkil olunacaq bu şuraların əsas vəzifələri fermerlərin problemlərini öyrənmək və onların aradan qaldırılması istiqamətində layihələrin hazırlanıb tətbiq edilməsinə kömək etməkdir. Şuralarda ictimai nəzarətin həyata keçirilməsi, subsidiyaların verilməsində şəffaflığın təmin edilməsi, aqrar sahənin inkişafı ilə bağlı müxtəlif təkliflər və ideyaların sürətlə yerində həll edilməsinə önəm veriləcək. Bundan başqa, koordinasiya şuraları mövcud problemləri və onların həlli yollarını müəyyən etmək üçün fermerlər arasında mütəmadi sosioloji rəy sorğuları keçirəcək, əldə olunan məlumatları operativ surətdə fermerlərə çatdıracaq.

Prezident İlham Əliyevin mayın 22-də "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin yaradılması haqqında" imzaladığı fərman da xüsusi əhəmiyyət kəsb edir. Fərmana əsasən, aqrar-sənaye kompleksi üzrə müxtəlif xidmətlərin, o cümlədən dövlət sifarişlərinin yerinə yetirilməsi, kənd təsərrüfatının inkişafı ilə bağlı məlumat bazasının yaradılması, proqram və layihələrin hazırlanması, sahənin strateji planlaşdırılmasının və innovativ inkişafının təmin edilməsi məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi Tədqiqat İnstitutu fəaliyyətinə Aqrar Tədqiqatlar Mərkəzi kimi davam edəcək. Atılan bu addımın mahiyyəti ondan ibarətdir ki, elm kənd təsərrüfatına daha da yaxınlaşacaq, əvvəlki illərdə olduğu kimi, fəaliyyəti təcrid olunmuş elmi tədqiqatlarla kifayətlənməyəcək. Kənd Təsərrüfatı Nazirliyi isə mərkəzin fəaliyyətinə beynəlxalq ekspertlərin cəlb edilməsini təmin edəcək, alınan nəticələrin birbaşa ölkənin aqrar sektorunda tətbiqinə nəzarət edəcək.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Rusiyalı şagirdlər ölkəmizdə informatika üzrə keçiriləcək beynəlxalq olimpiadaya dəvət olunublar



Azərbaycanın təhsil nazirinin müavini Firudin Qurbanov Moskva şəhəri Mədəniyyət Departamentinin direktor müavini Vladimir Filippovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı F.Qurbanov "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın müəyyən etdiyi hədəflərə uyğun olaraq ölkəmizdə təhsil sahəsində aparılan islahatlardan söz açıb. Nazir müavini tam orta təhsil səviyyəsində təmayülləşmənin tətbiqindən danışıb, istedadlı uşaqlarla sistemli işin təşkili nəticəsində fənn olimpiadalarına marağın daha da artdığını bildirib, həmçinin 2019-cu ildə ölkəmizdə informatika üzrə keçiriləcək beynəlxalq olimpiadaya rusiyalı şagirdlərin də dəvət olunduqlarını deyib.

F.Qurbanov Azərbaycan ilə Rusiya arasında təhsil sahəsinin bir çox istiqamətləri üzrə geniş əməkdaşlığın mövcudluğunu vurğulayıb. Moskva Dövlət Universiteti və M.T.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filiallarının uğurlu fəaliyyətini qeyd edən nazir müavini ölkəmizdə rus sektorunda tədrisin aparıldığını, rus dili və ədəbiyyatı üzrə hər il olimpiada keçirildiyini, Rusiya Federasiyasının aparıcı ali təhsil müəssisələrində azərbaycanlı gənclərin təhsil almaları üçün kvotaların ayrıldığını söyləyib.

V.Filippov Moskvada təhsil sahəsində yeniliklər, aparılan islahatlar, yeni informasiya texnologiyalarının tədrisdə tətbiqi və digər aktual məsələlərlə bağlı geniş məlumat verib. Azərbaycanda rus dilinə göstərilən diqqəti vurğulayan V.Filippov təhsil sisteminin informasiyalaşdırılması, məktəbdənkənar fəaliyyətin təşkili sahələrində təcrübə mübadiləsinin aparılmasında maraqlı olduqlarını qeyd edib.

Görüşdə həmçinin moskvalı şagirdlərlə paytaxtımızın şagirdləri arasında idman yarışları və intellektual oyunların keçirilməsi təklif olunub.

# Erməni xalqı Paşinyanı boykot etdi, Sarkisyan xuntasını isə tarixin arxivinə göndərdi

## Əhalinin yarıdan çoxunun iştirak etmədiyi parlament seçkiləri insanların heç bir siyasi qüvvəyə inanmadığını göstərdi

*Əvvəli 1-ci səh.*

Bu vəziyyətdə müxalifət qismində "Çiçəklənən Ermənistan" və "İşıqlı Ermənistan" partiyalarının çıxış etməsi gözlənilir.

Çox maraqlıdır ki, parlamentə düşən partiyaların özləri seçki zamanı böyük saxtakarlığa yol verdiklərini etiraf edirlər. Məsələn, "İşıqlı Ermənistan" bildirib ki, partiya seçki məntəqələrindən həyəcan doğuran qanun pozuntuları ilə bağlı məlumatlar alıb və polisə təqdim edib. Edmon Marukyan bu xüsusda bildirib: "Çoxsaylı həyəcan doğuran məlumat almışıq və operativ şəkildə polislərə bildirmişik. Təbii ki, adlarını açıqlaya bilmərəm. Mən polisi həyəcan doğuran məlumatlar daxil olduqdan dərhal sonra müvafiq tədbirlər görməyə çağırıram. Çünki seçkilərə görə cavabdehlik hazırkı hakimiyyətin və hüquq mühafizə orqanlarının üzərinə düşür".

"Çiçəklənən Ermənistan" partiyasının təmsilçisi Naira Zöhrabyan isə bildirir ki, Paşinyan istədiyi nəticəyə nail olmaq üçün administrativ resurslardan istifadə etməkdən belə çəkinməyib: "Məsələn, Ermənistanın Sünik vilayətinin qubernatoru Unan Poqosyan bütün şəhər merlərinə və icma rəhbərlərinə vətəndaşları Nikol Paşinyanın "Mənim addımım" blokuna səs verməyə çağırmalarını tapşırıb. "Mənim addımım" blokuna səs vermələri üçün vətəndaşlara pul təklif olunması barədə də məlumat var".

### Paşinyana etimad göstərənlərin sayı azalır

Respublika Partiyasının sədr müavini Armen Aşotyan bildirir ki, nəticələr Paşinyanın xalqdan gözlədiyi dəstəyi almaq iqtidarında olmadığını aydın göstərir. Onun sözlərinə görə, növbədənkənar parlament seçkiləri "məxməri" rejimin ümumdövlət benefisinin əsası ola bilmədi: "MSK-nın seçici fəallığına dair ilkin məlumatlarına əsasən, biz ilk siyasi qiymətləndirmələri verə bilərik. Mütəşəkkil fəaliyyətlərə birbaşa təzyiq nəticəsində seçkilərdə seçicilərin 50 faizdən azı - 48,63 faizi iştirak etdi.

Bu o deməkdir ki, dekabr ayında keçirilən parlament seçkiləri "ümummilli tələb" deyil, şəxsi siyasi hesablamaların və Nikol Paşinyanın maraqlarının nəticəsidir. Ümumerməni kampaniyası Nikol Paşinyana yardım etmədi, administrativ resurslardan istifadə uğursuz oldu. Bu seçkilər xalqın apatiyası və xəyal qırıqlığı fonunda Nikol Paşinyanın şıltaqlığı idi".

### Təşviqat kampaniyasına 558 min ABŞ dolları xərclənib

Yeri gəlmişkən qeyd edək ki, Paşinyanın rəhbərlik etdiyi "Mənim addımım" bloku növbədənkənar parlament seçkilərində rəqiblərindən və digər siyasi partiyalardan daha çox pul xərcləyib. Ermənistan seçki komissiyasının nəzarət-yoxlanış xidmətinin rəhbəri Tiqran Babikyanın sözlərinə görə, qanunla nəzərdə tutulmuş müddətdə seçkilərdə iştirak edəcək bütün siyasi qüvvələr Mərkəzi Bankda öz fondlarını açıblar və onlarla bağlı məlumat təqdim ediblər. Aparılan hesablamalar nəticəsində məlum olub ki, Paşinyanın bloku seçkilərin təbliğat-təşviqat kampaniyası üçün 268 milyon 590 min 708 dram, təqribən 558 min ABŞ dolları xərcləyib.

Paşinyanın əsas rəqibi olan "Respublikaçılar" partiyası 27 milyon 342 min dram, "Çiçəklənən Ermənistan" partiyası 102 milyon 671 min dram, "İşıqlı Ermənistan" partiyası 51 milyon 105 min dram, "Daşnaksütyun" 47 milyon 86 min dram, "Biz" bloku 31 milyon 459 min dram, "Sasna Tsrer" 14 milyon 315 min dram xərcləyiblər. Təşviqat kampaniyasına ən az pul xərcləyən partiya isə "Milli inkişaf" olub, cəmi 489 min 400 dram.

Ermənistan mediası yazır ki, Paşinyanın qələbə üçün xərclədiyi pulun böyük hissəsi dövlət vəsaitləri hesabına başa gəlib.

### Çoxsaylı qayda pozuntuları qeydə alınıb

"İnformasiya vətəndaşı ittifaqı"nın başçısı Daniyel İoannisyan bildirib ki, hətta belə vəziyyətdə növbədənkənar parlament seçkilərində səsvermənin gedişatında çoxsaylı pozuntular olub. O bildirir ki, ən gərgin vəziyyət Ararat vilayətindəki seçki məntəqələrində qeydə alınıb. Onun sözlərinə görə, seçki məntəqələrində yaranan problemlər həmçinin seçki komissiyalarının rəhbərlərinin qanunlarla tanış olma səviyyəsi ilə bağlıdır.

Müşahidəçilərin seçki prosesinə müdaxilə etdiyini deyən təşkilat sədri qeyd edib ki, əvvəllər qayda pozuntuları daha çox seçki məntəqələrindən kənarda qeydə alınırdısa, indiki halda pozuntular əsasən seçki məntəqələrində baş verir. "Respublika" partiyasından deputatlığa namizədliyini irəli sürən Vigen Sarkisyan isə bildirir ki, Paşinyanın sayəsində Ermənistanın "ağ" və "qara"lara bölünməsi ölkəni vətəndaş müharibəsinə aparıb çıxaracaq. Sarkisyan bildirib ki, ölkədə hərbi vəziyyət davam edərkən Ermənistanı müxtəlif yollarla ikiyə bölmək onu məhvə aparacaq: "Bizim resurslarımız bütün bu problemlərimizdən daha kiçikdir. Bölgədəki mövqeyimiz zəifləməkdədir. Eyni zamanda, parlament seçkiləri olduqca tələsik bir atmosferdə keçirildi. Bu da siyasi sahədə möhkəmlənməmizə ciddi mane olur və demokratik proseslərin inkişafının, güclənməsinin qarşısını alır".

"Respublika" partiyasının proporsional siyahısına daxil edilən David Şahnazaryan da nəticələrdən narazıdır: "Bu növbədənkənar parlament seçkiləri Ermənistan tarixində ən biabırçı seçkilərdir". Onun sözlərinə görə, təəssüf ki, seçkiqabağı təbliğat kampaniyası az davam etdi: "Bu, Ermənistan tarixində ən biabırçı seçkilərdir. Təşviqat kampaniyası zamanı hədələr səslənib, hakimiyyət qüvvələri tərəfindən zorakılıq halları qeydə alınıb".

Jurnalistlərin keçmiş seçkilərdə daha ciddi pozuntuların olması ilə bağlı iradlarına cavab olaraq D.Şahnazaryan bildirib: "Amma o zaman hakimiyyət demirdi ki, bu, qalaktikada ən ədalətli seçkilərdir".

### Paşinyanın qardaşı oğlu və qaynı da deputat seçilib

Parlament seçkilərinin nəticələrinə görə, ölkənin baş naziri vəzifələrini icra edən Nikol Paşinyanın iki yaxın qohumu - qardaşı oğlu və qaynı parlamentə deputat seçiliblər. "Lragir" nəşrinin verdiyi xəbərə görə, Tavuş vilayətində 17155 səs toplamış Sipan Paşinyan və Qraç Akupyan (8920 səs) deputat mandatı qazanıblar.

### "Koçaryanın həbsinin siyasi nəticələri çoxqatlıdır"

"1in.am" saytı isə diqqəti seçkilər ərəfəsində Robert Koçaryanın həbsinə yönəldir: "Apelyasiya məhkəməsinin hakim Ruben Mxitaryanın sədrliyi ilə keçirilən iclasında Robert Koçaryanı müdafiə tərəfinin ölkənin ikinci prezidentiylə bağlı həbs qətimkan tədbiri seçən birinci instansiya məhkəməsinin qərarından etdiyi şikayətlə əlaqədar qəbul edilən qərar elan olunub. Bu qərar əsasında Koçaryanın həbs edilməsi qaçılmaz olub. Sabiq prezidentin vəkili Ayk Alumyan deyib: "Bizim şikayətimiz rədd edildi, birinci instansiya məhkəməsinin qərarı qüvvədə qaldı. Məhkəməyə görə, o, həbs olunmalıdı, qətimkan tədbiri olaraq həbs seçilib".

Beləliklə, parlament seçkiləri dövründə Robert Koçaryan yenidən həbs edildi. Ayrıca, Koçaryanın həbsinin siyasi nəticələri çoxqatlıdır: bu, cəmiyyətin "Mənim addımım" ətrafında daha sıx birləşməsinə bəlkə də təkan verdi. Amma bu halda əsaslı qələbə anlayışı tamamilə şərtidir, çünki Nikol Paşinyanın bloku 90 faiz səs alsa da, konstitusiyaya əsasən, müxalifətin 30 faizlik təmsilçiliyi olmalıdır. İnqilab komandası istənilən halda, hətta Robert Koçaryan həbs edilməsəydi, konstitusiya çoxluğunu alacaqdı.

Bu nöqteyi-nəzərdən seçkiyə cəmi iki gün qalmış Koçaryanın həbsinin nə üçün hakimiyyətə belə çox lazım olması tam aydınlaşır. Xüsusən də öncədən məlum idi ki, Ermənistanın "Respublika" partiyası "Seçkiyə cəmi iki gün qalmış hakimiyyət bizim seçicilərimizi qorxutdu" deyərək bütün beynəlxalq strukturları şikayət və müraciətlərlə dolduracaq. Robert Koçaryan, deyək ki, 10 və ya 11 dekabrda da həbs edilə bilərdi və bu, manipulyasiyalara, açıq seçkiqabağı spekulyasiyalara gətirib çıxarmazdı. Koçaryanın vəkilləri ən yaxşı halda İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə ümid edə bilərlər".

### Ermənistanın tənəzzülü daha da sürətlənəcək

Ermənistanda hakimiyyətə yiyələnən Nikol Paşinyan antirusiya mövqeli şəxsdir. Paşinyan ardıcıl olaraq ölkənin xarici siyasət prioritetlərini dəyişmək kursu götürüb. Məsələ ondadır ki, bu şəxsin bütün fəaliyyəti müddətində antirus mövqeyi əsas xətt kimi keçib. Dəfələrlə ölkənin Rusiyadan həddən ziyadə asılılığını qabardıb. Pik nöqtə isə onun rəhbərlik etdiyi blokun Ermənistanın Avrasiya İqtisadi İttifaqından və Gömrük İttifaqından çıxması barədə hazırladığı qanun layihəsi oldu. Elə bunu nəzərə alan qüvvələr də onu hakimiyyətə gətirdilər. Onun vəzifəyə gətirdiyi kadrlar da bunu təsdiq edir. Hakimyyətdə rusofob və "Sorosun uşaqları" kifayət qədərdir. Bu, yeni parlamentin Rusiyaya qarşı olacağını göstərir. Amma Soros Fondu Paşinyan komandasının zəif seçki nəticələri göstərməsinin nümunəsində postsovet məkanında növbəti dəfə məğlubiyyətə uğradı, indi onun layihələri kütlələr üçün maraqlı və cəlbedici deyil.

Bütün bunların fonunda bəzi beynəlxalq qurumların Ermənistanda seçki saxtakarlığına qarşı çıxmaması həmin qurumların ikili standartlarla, bir çox hallarda isə xristian təəssübkeşliyindən çıxış etmələrinin, erməni lobbisindən çirkli maliyyə almalarının, Qərb təsisatlarının ələ alınmasının nəticəsi sayıla bilər. İstənilən halda Ermənistan tarixində növbəti saxtakarlıqla dolu seçkiyə imza atdı və bu hal ölkənin uçuruma yuvarlanmasını daha da sürətləndirən məqam sayılır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

**11 dekabr Beynəlxalq Dağlar Günüdür**

# Görən, dağlar yerindəmi?!



Dağlar zirvələri ilə öyünürlər, çünki onlar sayəsində Allaha daha yaxın olurlar... Görünür elə bu səbəbdəndir ki, çox əzəmətli, qürurlu, sehrlidir ulu dağlar...

Uşaqlığım, nağıl dünyam keçib bu dağların zirvəsində, dar keçidlərinə, dolanbac cığırlarına, dik aşırımlarına bələdəm...

Göz-gözü görməyən çənində o qədər azmışam ki, yarpızlı, baldırğanlı bulaqlarından o qədər su içmişəm ki...

İldırım çaxanda zirvəni qılınc kimi kəsib yox olan şimşəyini izləməkdən doymurdum...

Amma bircə dəfə də olsun ağlıma gətirməmişdim ki, haçansa bu ucalığa, bu qüdrətə, bu ecazkarlığa həsrət qalacam...

Bilmirdim ki, bəlkə bu yerlərə bir də qayıtmadım...

## Dağların günü

11 dekabr Beynəlxalq Dağlar Günüdür. Bu gün 2003-cü ildə BMT Baş Məclisinin 57-ci sessiyasında planetimizin dağlıq rayonlarının inkişafı problemlərinə və həmin ərazilərdə yaşayan əhaliyə kömək göstərilməsinə diqqəti cəlb etmək məqsədi ilə elan olunub.

Bəzi dağlar yerin sıxılması nəticəsində, bəziləri isə qızmar lavaların yer üzünə çıxıb donması nəticəsində meydana gəlib. Asiyanın 54, Şimali Amerikanın 36, Cənubi Amerikanın 22, Avropanın 25, Avstraliyanın 17, Afrikanın 3 faizi dağlardan ibarətdir. Ümumilikdə dünyanın quru hissəsinin 24 faizi tamamilə dağlıqdır və insanların 10 faizi həmin dağlıq ərazilərdə yaşayırlar. Çayların əksəriyyəti dağlardakı qaynaqlarla qidalanır və dünya əhalisinin yarıdan çoxu suyunu dağlardan alır. Dünyanın ən yüksək dağı Himalay dağlarıdır və onun da ən yüksək zirvəsi 8848 metrlə Everestdir. Dağlar, adətən zəncir şəklində uzanır ki, belə dağlara sıra dağlar deyilir. Dünyanın ən uzun dağ silsiləsi Cənubi Amerikanın qərbindəki And dağlarıdır. Onun uzunluğu 9 min kilometrə çatır.

Məlumatlara əsasən, yerlə yanaşı digər planetlərdə də dağlar var. Məsələn, Venerada Gila Dağı (3 km) və Günəş Sisteminin ən yüksək dağı Marsdakı Olimpiya Mons (25 km) dağıdır. Bununla yanaşı, Ayda 8 km yüksəkliyi olan dağlar var.

## Ən müdhiş olan zirvədəyəm mən...

Zəngin təbiətə malik Azərbaycan da dağlıq ölkədir. Azərbaycanın ən yüksək nöqtəsi Böyük Qafqaz dağ silsiləsindəki 4466 metr hündürlüyünə malik Bazardüzü zirvəsidir. Kiçik Qafqaz dağ silsiləsində 3724 metrlə Gamışdağ, Naxçıvan MR ərazisində Dərələyəz və Zəngəzur sıra dağlarında 3904 metrlə Qapıcıq, Talış dağ sistemində isə 2493 metrlə Gömürgöy ən hündür zirvələrdir.

Dağların zirvəsi nə qədər hündür olarsa, daha çox buzlaqlara sahib olur, su ehtiyatı saxlaya bilirlər. Dünyada olan 11 iqlim tipindən 9-u Azərbaycandadır ki, buna səbəb də elə dağlarımızdır. Dağlar həm təbiətdə, həm də insan həyatında çox ciddi rol oynayır.

Əgər desək ki, dağlar bizim həyatımızdır, qətiyyən yanılmarıq. Müqəddəs "Qurani-Kərim"də olan ayətlərin birində deyilir: "Biz dağları yaratdıq ki, yer sizi çox silkələməsin". Yəni dağıdıcı zəlzələlərin qarşısını da yalnız bu qüdrətli dağlar vasitəsilə almaq mümkündür...



Azərbaycan Milli Elmlər Akademiyasının Həsən Əliyev adına Coğrafiya İnstitutunun Landşaftşünaslıq və landşaft planlaşdırılması şöbəsinin müdiri, coğrafiya üzrə fəlsəfə doktoru, dosent Mirnuh İsmayılov deyir ki, hər bir materikin, quru sahəsinin böyüməsi dağlarla başlayır. Əvvəlcə dağlar yaranır, daha sonra xarici qüvvələr günəşin istiliyi, külək və sair sayəsində dağılır, hamarlanır və düzən sahələr meydana gəlir. Bir sözlə, düzən sahələr də öz yaranmasına görə dağlara borcludur.

Dağların Azərbaycan təbiətinin formalaşmasındakı rolu, insanların həyatındakı əhəmiyyəti və hazırda dünyada baş verən qlobal istiləşmənin və digər amillərin yaratdığı problemlərlə bağlı maraqlı faktlar söyləyən müsahibimizin fikrincə, əgər düzənlikdə yaşayırıqsa, bu o demək deyil ki, dağların bizə aidiyyəti yoxdur: "Məsələn, Kür-Araz ovalığının indiki təbiəti onu əhatə edən Böyük, Kiçik Qafqaz və Talış dağları ilə sıx bağlıdır. Bu ovalığa gələn xeyli çay öz mənbəyini dağlardan götürür. Dağlar ilin soyuq dövründə suları yığır, konservasiya edir və ilin isti dövründə çaylar şəklində bizə verir və bunun sayəsində düzənliklərdə, ovalıqlarda həyat yaranır".

## Dağların işinə qarışa bilmərik...

Fəlsəfə doktoru izah edir ki, əgər Böyük Qafqaz dağları olmasaydı, Azərbaycanda təbiət bu cür zəngin olmazdı. Bu zaman şimaldan gələn soyuq hava kütlələri sərbəst şəkildə ölkəyə daxil olardı və qış həddindən artıq soyuq, yay isə çox isti olardı.

Məsələn, Azərbaycanla bir enlikdə olan Qazaxıstanı, Özbəkistanı, Türkmənistanı şimaldan əhatə edən dağlar yoxdur və buna görə qışı xeyli sərt, yayı qızmar isti keçir: "Qanıx-Əyriçaydan yeraltı suları Oğuz-Qəbələ-Bakı su kəməri ilə Bakıya gətirilib. Əslində, bu yeraltı suyu formalaşdıran da Böyük Qafqazın buzlaqlarıdır. Amma elə etmək lazımdır ki, balans pozulmasın. Əgər balansdan çox su götürülsə, onda Qanıx-Əyriçayın ciddi problemləri yaranar. Bununla yanaşı, Böyük Qafqazın Şimal-Şərq yamacından Şollar Bakı su kəməri çəkilib. Bu kəmərin çəkilməsi Samur-Dəvəçi ovalığında olan yeraltı su ehtiyatı ilə bağlıdır ki, həmin ehtiyat da Baş Qafqaz silsiləsində illərlə konservasiya olunmuş buzlaqlardan, yeraltı sular kimi su ehtiyatlarından qaynaqlanır".

## Sonuncu Vətən daşı...

Mirnuh müəllim deyir ki, Azərbaycanda olan dağ silsilələrinin hərəsinin öz xüsusiyyəti var: "Məsələn, tədqiq edəndə görürsən ki, Böyük Qafqaz insanla tamamilə ayrı cür "danışır", Kiçik Qafqaz, Talış dağları isə tamam ayrı. Mən deyərdim ki, Kiçik Qafqaz Azərbaycan təbiətinin incisidir. Bu dağlarda gəzəndə hər daş, hər qaya, hər süxur sənə bir nağıl danışır. Amma Böyük Qafqazda belə deyil, orada hamısı tökmə süxurlardır, gilliсəli, qumlucalı, əhəngdaşlı süxurlar. Kiçik Qafqazda isə yerə əyilib çay daşlarına, çayın gətirdiyi süxurlara baxmaq kifayət edir ki, görəsən hərəsinin bir rəngi var. Bu onu göstərir ki, Kiçik Qafqazın əmələ gəlməsi də, zənginliyi də tamam ayrı aləmdir".

Ən məşhur qızıl yataqlarımızın da Kiçik Qafqazda olduğunu söyləyən fəlsəfə doktoru məlumat verir ki, nəhəng qızıl mədənləri, alunit, dəmir filiz, civə yataqları, mineral bulaqlar bu dağları təbii sərvətlərin ünvanına çevirir.

Mirnuh İsmayılov qeyd edir ki, Kiçik Qafqaz dağlarının işğal altında olması bizim üçün təsvirəgəlməz itki deməkdir: "Axırıncı dəfə 1988-ci ildə Kəlbəcərə ekspedisiyaya getdik. Oradan gələndə Zod qızıl mədənində işləyən azərbaycanlı fəhlə bizə bir qızıl süxuru verdi. Dedi ki, ermənilər bunu məndən almaq istəyirlər. Xahiş edirəm, bunu aparın Bakıya və orada deyin ki, ermənilər bizim sərvətimizi talayırlar. Bu günə qədər də həmin süxur akademiyada saxlanılır. Həmçinin oradan gətirdiyim bir tuf daşını evimdə saxlayıram və soruşanlara deyirəm ki, bu Kəlbəcərdən gələn axırıncı daşdır, mənim üçün çox qiymətlidir, çünki bu bizim torpağın nümunəsidir..."

## Unikal flora zənginliyi

"Talış dağlarının da özünəməxsus təkrarsız xüsusiyyəti var. Bu dağların nisbətən aşağıda yerləşməsi onu buzlaşmadan qoruyub və qədimdən qalan flora və faunanı bu gün də saxlaya bilib. Hətta Talış dağları flora zənginliyinə görə dünyanın sayılıb-seçilən yeridir. Belə ki, hər 10 min hektara düşən növ zənginliyinə görə subtropik qurşaqda ikinci belə bir zəngin yer yoxdur".

Meşələri, xüsusilə də dağlarda yerləşən meşələri qırmağın təbii fəlakətlərə yol açdığını vurğulayan Mirnuh İsmayılov söyləyir ki, hazırda meşələrimizin 90 faizi dağlarda yerləşir: "Dağ meşələrinin su qoruyucu, torpaq qoruyucu, dağın özünü qoruyucu funksiyaları var. Əgər dağlarda meşələri qırsan, eroziya sürətlənər, torpaqlar yuyulub gedər, otlaqlar, əkin sahələri olmaz, sellər fəallaşar, sürüşmələr artar və beləliklə də insanın həyat fəaliyyəti sönər. Təbiətin tarazlığı pozulduğu üçün getdikcə torpaq sahələri azalır. Axır zamanlar dağlıq ərazilərdə yolların çəkilməsi sürətlənib. Bu yolları çəkərkən çox diqqətli olmaq lazımdır. Həmin yolun keçdiyi ərazinin landşaftını, torpağını, bitki örtüyünü, heyvanlar aləmini, süxurların litalogiyasını, yatım vəziyyətini bütün öyrənmək lazımdır".

## Sürüşmələr, eroziya, bitki örtüyünün dəyişməsi...

"Əvvəllər dağlıq ərazilərə çəkilən yollarla bağlı iri layihələr həyata keçiriləndə Coğrafiya İnstitutuna müraciət edilir və ora kompleks ekspedisiyalar təşkil edilirdi" deyən dosentin fikrincə, həmin ekspedisiyalar nəticəsində yolun keçəcəyi ərazidə bütün təbii komponentlər öyrənilir, sonra çəkilirdi: "Bu yol təbii ərazidə balansı nə dərəcədə pozacaq, hansı problemlər ortaya çıxacaq və s. İndi isə təəssüf ki, yollar çəkiləndən sonra ora gedib görürük ki, ciddi problemlər ortaya çıxıb. Sürüşmələr, eroziya, bitki örtüyünün dəyişməsi sürətlə gedir. Dağlıq ərazilərdə olan meşələrə ancaq cığırlardan istifadə edərək getmək olar. Daha orada ev tikmək, nəhəng yol çəkmək qətiyyən yolverilməzdir. Çünki bizim ölkədə meşə cəmi 11 faiz təşkil edir ki, onun da 90 faizi dağlardadır. 264 min hektar meşə sahəmiz isə düşmən əlindədir. Məlumatlara əsasən, onlar kolları yandıraraq gələcək meşə əmələ gəlməni məhv edirlər, qiymətli ağacları qırırlar. Bəsitçay qoruğundakı təbii çinar meşəmiz tamamilə qırılaraq mebel sənayesində istifadə olunur. Çox qiymətli Qırmızı palıd, fıstıq kimi ağaclarımızı ermənilər məhv ediblər. İşğal altında olan meşələrin ciddi ekoloji problemləri var. Həm sahə, həm də meşənin tərkibində müşahidə olunan dəyişikliklər baxımından".

## Yer üzünü dağlar da xilas edə bilməyəcək...

Qlobal iqlim dəyişmələri ilə bağlı da dağların çox problemləri olduğunu söyləyən fəlsəfə doktoru qeyd edir ki, dağlarda istiləşmə prosesi gedir, istiliyin sərhədi yuxarı qalxır: "Ötən il Böyük Qafqazda subalp çəmənliyində tədqiqat aparırdıq və təəccüblüdür ki, orada zəhərli ilana rast gəldim. Bu qlobal istiləşmə ilə əlaqədardır. O cümlədən, hündürlük qurşaqlarında yavaş-yavaş dəyişmələr baş verir və dağ buzlaqların azalması haqqında xəbərlər gəlir. Həmin zirvələrə qalxmaq, tədqiqat aparmaq çətindir, amma vertolyotla çəkilən şəklə əsasən analiz etmək mümkündür. Son zamanlar dronla çəkilişlər aparılıb. Biz bu vasitə ilə hündür zirvələrimizdəki vəziyyəti müşahidə edə, dağ buzlaqlarının Azərbaycanda dinamikasını öyrənə və gələcək üçün müəyyən proqnozlar verə bilərik".

İnsan mədəniyyətinə, adət-ənənələrinə, həyat tərzinin formalaşmasına ciddi təsiri olan dağlarla yola getməyi bacarmaq lazımdır. Necə ki, min illərdir insanlar dağlarla uyum içində yaşamağı öyrəniblər. Müasir insan isə bütün bu qaydaları pozmağa, necə deyərlər sürətlə ayağının altını qazmağa başlayıb... Əgər bu cür davam etsə, yer üzünün və insanlığın sonunun qarşısını almağa heç dağların da gücü çatmayacaq...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

**Qazax Müəllimlər Seminariyası -100**

# İşığa aparan yol

XIX əsrin sonlarına doğru Azərbaycanda yeni tipli məktəblərin açılmasına zərurət kimi baxanların sayı artırdı. Bunun üçün, ilk növbədə, maarifpərvər və millətsevər müəllimlərə ehtiyac var idi.



## Azərbaycan ziyalılarının maarifçilik arzuları

Həmin vaxtlar Gürcüstanın Qori şəhərində 1876-cı ilin sentyabrından fəaliyyət göstərən və ümumilikdə Rusiya imperiyasının ən qabaqcıl təhsil müəssisələrindən biri sayılan Zaqafqaziya Müəllimlər Seminariyası pedaqoqlar hazırlayırdı. Bu tədris ocağı 1875-ci il aprelin 8-də çar II Aleksandrın imzaladığı fərmanla təsis edilmişdi. Seminariyanın əsasnaməsinin birinci bəndinin qeyd hissəsində yazılırdı: "Müsəlmanlar üçün xüsusi məktəb açılanadək onlara Zaqafqaziya Müəllimlər Seminariyasına və onun nəzdindəki ibtidai məktəblərə daxil olmağa icazə verilir".

Seminariyanın nəzdində açılmış üç ibtidai məktəbdə - rus, gürcü və erməni məktəblərində təhsil rus dilində aparılırdı. Azərbaycan dilini bilən müəllimlərin olmaması azərbaycanlı uşaqların bu təh-



sil ocağına cəlb edilməsinə problemlər yaradırdı. Azərbaycanda isə sayca az olan ziyalılar yeni tipli məktəblərin açılması uğrunda böyük işlər görürdülər. Elə Qafqaz canişininin ilk dəfə Zaqafqaziyanın müsəlman əhalisi üçün Zaqafqaziya Müəllimlər Seminariyası nəzdində tatar (Azərbaycan) bölməsinin açılmasına razılıq verməsi də bu mübarizənin nəticəsi idi. Bölmə 1879-cu ilin sentyabrında fəaliyyətə başladı. Çar II Aleksandrın 1880-ci il mayın 13-də imzaladığı fərmanla isə Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində tatar (Azərbaycan) bölməsinin fəaliyyəti rəsmiləşdirildi.

Bu bölməyə Aleksey Çernyayevski inspektor təyin edildi. Şamaxıda kasıb rus ailəsində doğulub böyüyən, azərbaycanlılara böyük rəğbət bəsləyən A.Çernyayevski narahat idi. Çünki oxumaq üçün ərizə verənlərin sayının azlığı Azərbaycan bölməsinin bağlanması ilə nəticələnə bilərdi. Azərbaycanlı uşaqları seminariyaya cəlb etmək üçün A.Çernyayevski İrəvan, Naxçıvan, Gəncə, Şuşa, Şamaxı, Quba və Dərbəndi kəndbəkənd gəzib-dolaşdı. Onun zəhməti sayəsində Qori Seminariyasına təhsil almağa gələn azərbaycanlı uşaqların sayı ildən-ilə artdı.

Zaqafqaziya Müəllimlər Seminariyası 40 ilə yaxın müddətdə Azərbaycan məktəbləri üçün 250-dək müəllim hazırladı. Məktəbin məzunları - Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Səfərəli bəy Vəlibəyov, Baba bəy Səfərəlibəyov, Teymur bəy Mahmudbəyov, İsmayıl ağa Vəkilov, Məmmədağa Şıxlinski, Üzeyir Hacıbəyli, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Müslüm Maqomayev, Süleyman Sani Axundov, Fərhad Ağazadə, Nurməmməd Şahsuvarov, Müseyib İlyasov, İsfəndiyar Vəkilov və başqaları yalnız milli maarifçilik hərəkatının inkişafında müstəsna rol oynamadılar, onlar ümumilikdə Azərbaycanın tərəqqisi yolunda böyük fədakarlıqlar göstərdilər.

## Gerçəkləşən ümidlər

Ziyalılarımız XIX əsrin 80-ci illərindən seminariyanın Azərbaycan şöbəsinin Qoridən Bakı, Gəncə, Şamaxı, Şuşa, yaxud Ağdam şəhərlərindən birinə köçürülməsini və onun əsasında ayrıca seminariya açılmasını təklif edirdilər. Ancaq xalqımızın inkişafına xidmət edən bu gözəl arzunu yalnız 1918-ci ilin 28 mayında Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətə gəldikdən sonra reallaşdırmaq mümkün oldu.

Azərbaycan hökuməti həmin il iyunun 20-də keçirilən iclasında Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi əsasında müstəqil müəllimlər seminariyasının təşkilini qərara aldı. Xalq maarif naziri həmin şöbəyə aid əmlakın Qoridən Qazaxa gətirilməsini Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müfəttişi Firidun bəy Köçərliyə həvalə etdi. Bunun üçün Azərbaycan hökuməti maliyyə vəsaiti ayırdı. Lakin Gürcüstan hökumətinin Osmanlı ordu hissələrini Azərbaycana buraxmamaq üçün 1918-ci ilin iyun-avqust aylarında Tiflisdən Poylu körpüsünədək dəmir yolu xəttini nəzarətində saxlaması maneələr yaratdı. Qoridən seminariyanın Azərbaycan şöbəsinin əmlakını Qazaxa sentyabrın ortalarında gətirmək mümkün oldu. Bu işdə seminariyanın məzunları və yerli əhali yaxından iştirak etdi. Qazax qəzasının rəhbərliyi, nüfuzlu şəxslər də lazımi hazırlıqlar gördülər. Məşədi İbrahim Hacı İsmayıl oğlu Qazax şəhərindəki on yeddi otaqlı mülkünü seminariyaya bağışladı.

1918-ci ildə Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin Qazaxa köçürülməsində çox böyük xidmətlər göstərən görkəmli maarifçi, pedaqoq, metodist, ədəbiyyatşünas, publisist Firidun bəy Köçərli xalq maarif naziri Nəsib bəy Yusifbəylinin əmri ilə həmin il oktyabrın 1-dən seminariyanın direktoru təyin edildi.

Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin bazasında yaradılan Qazax Müəllimlər Seminariyasının rəsmi açılışı 1918-ci il noyabrın 10-da oldu və həmin gündən dərslər başlandı.

Firidun bəy "Azərbaycan" qəzetinin (rus dilində) 1918-ci il 13 oktyabr tarixli nömrəsində dərc olunan "Zaqafqaziya Müəllimlər Seminariyasının tatar bölməsinin müstəqil seminariyaya çevrilməsi haqqında" sərlövhəli məqaləsində yazırdı: "Qazax Müəllimlər Seminariyası kimi vacib bir pedaqoji məktəbin açılması bütün qəza üçün böyük əhəmiyyət kəsb etdiyindən inanırıq ki, ziyalılar başda olmaqla yerli əhali bu təhsil ocağının gələcək fəaliyyətini təmin etməkdən ötrü əllərindən gələn köməyi əsirgəməyəcəkdir. Bütünlüklə seminariyanın yetirmələrindən ibarət olan yerli administrasiya tərəfindən də bu təhsil ocağına xüsusi qayğı göstəriləcəyinə şübhə etmirik".



Bu təhsil ocağının fəaliyyəti ilk gündən əhali tərəfindən böyük rəğbətlə qarşılandı. Seminariya direktorunun Xalq Maarif Nazirliyinə ünvanladığı raportda 1918-ci il noyabrın 8 və 9-da keçirilmiş qəbul imtahanlarının nəticələri açıqlanırdı. Firidun bəy bildirirdi ki, müraciət etmiş 42 şagirddən 35-i imtahanlardan uğurla keçərək seminariyada oxumaq haqqı qazanıb. Cəbrayıl, Şamaxı, Ağdam, Göyçay, Naxçıvan, Zaqatala və başqa rayonlardan şagirdlər gəlib seminariyada təhsil alırdılar.

1919-cu ildə seminariyada dövlət hesabına oxumaq üçün ayrılmış 8 yerə 40 ərizə verildi. Qəbul edilməyən şagirdlərin valideynləri həmin vaxt Qazaxda keçirilən kəndli qurultayının iştirakçılarından - Azərbaycan parlamenti üzvləri Əhməd bəy Pepinov, Hacı Kərim Sanıyev və Səməd ağa Ağamalıoğlundan kömək istədilər. Parlament üzvlərinin müraciətinə cavabında seminariyanın direktoru ömrünü pedaqoji işə həsr etmiş qocaman müəllim kimi hamının təhsil almasını istədiyini, lakin seminariya binasının bütün arzu edənləri qəbul etməyə uyğun olmadığını bildirdi. Firidun bəy onlardan Qazax Müəllimlər Seminariyası üçün yeni böyük bina tikilməsi məsələsinin həllini sürətləndirməyi xahiş etdi.

Məşədi İbrahim Hacı İsmayıl oğlunun yaşayış üçün nəzərdə tutulmuş mülkündə çətinliklə 60 nəfərin oxuması mümkün idi. Amma seminariyada xəzinə hesabına təhsil alan 60 şagirddən başqa, 5 şagird də öz hesabına oxuyur, pansionatda qalırdı. Yeni qəbul edilən daha 11 şagird isə dərslərdə iştirak edir və evlərinə gedirdilər. Beləliklə, 1919-1920-ci tədris ilində seminariyada 76 şagird təhsil alırdı. Həmin il birinci buraxılış olacaqdı...

## Xeyirxahlıq unudulmur

Qazax Müəllimlər Seminariyası Azərbaycanda milli müəllim kadrları hazırlığına başlayan ilk pedaqoji məktəb idi. Bakı və Gəncə şəhərlərində daha əvvəldən fəaliyyət göstərən müəllimlər seminariyalarında milli proqramlar əsasında pedaqoji kadrlar hazırlığına da 1919-cu ildən başlandı.

Seminariyanın direktoru F.Köçərlinin və kargüzarı A.Vəkilovun imzaları ilə Xalq Maarif Nazirliyinə göndərilmiş 1 aprel 1919-cu il tarixli məlumat burada çalışan müəllim və texniki işçilərin əksəriyyətinin azərbaycanlı olduğunu təsdiq edir.

Azərbaycan Xalq Cümhuriyyətinin maarifçilik istiqamətində nəzərdə tutduğu işlərin həyata keçirilməsində Qazax Müəllimlər Seminariyasının təqdirəlayiq əməyi oldu. Seminariyanın fəaliyyəti Azərbaycanda təhsilin, maarifin inkişafına böyük təkan verdi. 1919-cu il aprelin 6-da xalq maarif nazirinin müavini Həmid bəy Şahtaxtinski Firidun bəy Köçərliyə məktubunda bildirirdi: "Sizin gənc seminariyanın mədəni fəaliyyəti nazirliyi fərəhləndirir. Nazirlik sizə və sizin seminariyaya təşəkkür edir".

1919-cu ilin yayında seminariyanın nəzdində pedaqoji kurs təşkil edildi. Kursun dinləyiciləri arasında kişi müəllimlərlə yanaşı, 20-dən çox qadın müəllimə var idi. Seminariya müəllimlərinin köməyi ilə yaşlılar üçün savad kursları açıldı.

1919-1920-ci dərs ilinin əvvəlində seminariyada aşağı hazırlıq sinfi yaradıldı. Xalq Maarif Nazirliyi tərəfindən Qazax Müəllimlər Seminariyasında müəyyən hazırlıq keçən müəllimlərə digər məktəblərə yuxarı siniflərdə dərs aparmaq üçün təyinat verilirdi.

Firidun bəy Köçərli seminariyaya rəhbərlik etməklə bərabər, Qazaxda yüzlərlə qız uşağının savadlanması üçün yetimlər kursu, qaçqınlara yardım fondu yaradırdı. 1920-ci ildə Firidun bəy erməni terrorçuları tərəfindən qətlə yetirildikdən sonra seminariyaya Əli Hüseynov başçılıq etdi. Sovet hakimiyyəti qurulduqdan sonra seminariya 1940-cı illərədək Qazax Pedaqoji Texnikumu adı ilə fəaliyyət göstərdi.

Qazax Müəllimlər Seminariyası məzunlarının əksəriyyəti Azərbaycanda xalq maarifi, məktəb, ədəbiyyat, mədəniyyət və incəsənətin bir çox görkəmli nümayəndələri kimi tanındılar.

Azərbaycan xalqının maarifçilik tarixində unudulmaz yeri olan Qazax Müəllimlər Seminariyasının yaradılmasından yüz il ötür. Seminariyanın 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı Prezident İlham Əliyev noyabrın 3-də sərəncam imzalayıb. Sərəncamda deyilir ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarına əsasən, Qazax Müəllimlər Seminariyasının təşkili Azərbaycanın maarif salnaməsinin ən parlaq səhifələrindəndir: "Görkəmli ədəbiyyatşünas, tanınmış maarifpərvər və ictimai xadim Firidun bəy Köçərlinin rəhbərliyi ilə fəaliyyətə başlayan Qazax Müəllimlər Seminariyası bütün fənlərin tədrisinin ana dilində mütərəqqi üsullarla aparıldığı yeni təhsil ocağı kimi Azərbaycanda elmin, maarifin və mədəniyyətin inkişafına misilsiz töhfələr vermişdir".

Xalqın maarifçilik yolunu aydınladan Qazax Müəllimlər Seminariyasının qurucuları, müəllimləri və məzunlarının xeyirxah əməlləri ənənəyə, arzuları inama çevrildi. Bu gün onların görmək istədikləri müstəqil Azərbaycanın tərəqqisi naminə həmin əməllər və arzular davam etdirilir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# BİLDİRİŞ

**Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi cari il üçün kompüter avadanlıqlarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir**

Maraqlanan təşkilatlar (012) 596-08-50; (050) 230-01-22 telefon nömrələri ilə əlaqə saxlaya bilərlər. Müsabiqədə iştirak etmək üçün sənədlər 14.12.2018-ci il tarixdə saat 11:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, AZ1005. Mirzə İbrahimov küçəsi - 8.**

***Tender komissiyası***

# BİLDİRİŞ

**Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi 2019-cu ildə inzibati binasının fasiləsiz mühafizəsinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir**

Maraqlanan təşkilatlar (012) 596-08-50; (050) 230-01-22 telefon nömrələri ilə əlaqə saxlaya bilərlər. Müsabiqədə iştirak etmək üçün sənədlər 14.12.2018-ci il tarixdə saat 11:30-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, AZ1005. Mirzə İbrahimov küçəsi - 8.**

***Tender komissiyası***

# BİLDİRİŞ

**Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi 2019-cu ildə "Toshiba" markalı VRF sistemli kondisionerlərinə texniki xidmətin göstərilməsinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir**

Maraqlanan təşkilatlar (012) 596-08-50; (050) 230-01-22 telefon nömrələri ilə əlaqə saxlaya bilərlər. Müsabiqədə iştirak etmək üçün sənədlər 14.12.2018-ci il tarixdə saat 12:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, AZ1005. Mirzə İbrahimov küçəsi - 8.**

***Tender komissiyası***

# BİLDİRİŞ

**Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi 2019-cu ildə "cijournal.az", "stj.sam.az", "sam.az" saytlarına texniki xidmətin göstərilməsinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir**

Maraqlanan təşkilatlar (012) 596-08-50; (050) 230-01-22 telefon nömrələri ilə əlaqə saxlaya bilərlər. Müsabiqədə iştirak etmək üçün sənədlər 17.12.2018-ci il tarixdə saat 12:30-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, AZ1005. Mirzə İbrahimov küçəsi - 8.**

***Tender komissiyası***

## Əfqanıstanda 8 hərbçi həlak oldu



Əfqanıstanda Fərəh əyalətinin Bala Buluk qəzasında taliblər yerli nəzarət-keçid məntəqəsinə hücum etmişlər. Nəticədə 8 hərbi qulluqçu həlak olmuşdur. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Fərəh regional parlamentinin deputatı Dədullah Kani bildirmişdir ki, hücum zamanı 10 hərbi qulluqçu oğurlanmışdır.

Hadisə ilə əlaqədar "Taliban" hərəkatı bəyanatla çıxış etmişdir. Bəyanatda deyilir ki, hücum nəticəsində taliblər blokposta nəzarəti ələ keçirmişlər.

**Beynəlxalq aləm**
HADİSƏLƏR, FAKTLAR

## Almaniyada dəmiryolçular tətil keçirdilər




Dünən Almaniyada Dəmiryolu və Nəqliyyat İşçiləri Həmkarlar İttifaqının (EVG) təşkilatçılığı ilə xəbərdarlıq tətili keçirilmişdir. "Deutsche Bahn" dəmiryolu konserni ölkənin bütün ərazisində şəhərlərarası qatarların hərəkətini dayandırmışdır. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

"Deutsche Bahn" sərnişinləri qatarların hərəkət cədvəlində pozuntular barədə məlumatlandırmış və onlara səfərlərini bu günə keçirməyi tövsiyə etmişdir. Ölkənin bir çox regionlarından dəmir yolunun işində ciddi pozuntular barədə məlumat daxil olmuşdur. Məsələn, Nürnberqdən Vürtsburq, Münxen və Berlin istiqamətində bütün qatarlar dayanmışdır. Tətildən ən çox Almaniyanın cənub-qərb hissəsi əziyyət çəkmişdir.

Karlsruedə baş vağzalın işi tamamilə dayanmışdır. Berlində şəhərətrafı elektrik qatarları hərəkət etməmişdir. Ölkədə yük dəmiryol nəqliyyatının hərəkətində pozuntular baş vermişdir.

EVG həmkarlar ittifaqi "Deutsche Bahn" şirkəti ilə uğursuz tarif danışıqlarından sonra xəbərdarlıq tətili elan etmişdi. EVG özünün 160 min üzvü üçün tələb olunan əməkhaqqı artımına nail ola bilməməsindən narazıdır.

## Özbəkistanda milislər rüşvət almayacaqlarına and içdilər

Özbəkistanın rayonlarının birində milis əməkdaşları rüşvət almayacaqları və pul qoparmaqla məşğul olmayacaqları ilə bağlı Qurani-Kərimə and içmişlər. Müvafiq tədbir Daşkənd vilayətinin Yuxarı Çirçik rayonunda baş imamın iştirakı ilə keçirilmişdir.

Hazırda ölkədə Prezident Şavkat Mirziyeyevin təsdiq etdiyi korrupsiya ilə mübarizə üzrə dövlət proqramı icra olunur.

Qeyd edək ki, bundan əvvəl yerli fermerlər və tibb işçiləri də and içmişlər. Onlar peşələrinə sadiq olmağa, ölkənin inkişafına töhfə verməyə və qanunsuz işlərlə məşğul olmayacaqlarına söz vermişlər.

## Fransada nümayişçilərin sayı 136 min nəfəri ötüb

Fransada "sarı jiletlər"in etiraz aksiyalarında iştirak edənlərin sayı 136 min nəfəri ötmüşdür. Bu barədə Daxili İşlər Nazirliyi məlumat vermişdir.

Asayiş keşikçiləri 1723 etirazçını polis məntəqələrinə aparmışlar. Onlardan 1220-si saxlanmışdır.

Hökumətin nümayişləri dayandırmaq çağırışına və gələn il yanacağın qiymətinin artırılmasını ləğv etmək vədinə baxmayaraq, "sarı jiletlər" Prezident Emmanuel Makronun siyasətinə etiraz etmək üçün yenidən ölkənin bütün şəhərlərinin, ilk növbədə Parisin küçələrinə çıxmışlar. Makronun istefasını tələb edən etirazçılar polislərə əldəqayırma partlayıcı qurğular və digər əşyalar atmışlar.

Nümayişlər qarətlərlə və maşınların yandırılması ilə müşayiət olunmuşdur.

Fransada ötən ayın 17-dən bəri yanacağın qiymətinin artırılmasına qarşı kütləvi etiraz aksiyaları keçirilir. İğtişaşlar nəticəsində indiyədək 3 nəfər həlak olmuş, 1043 nəfər yaralanmışdır. Yaralananların 222-si təhlükəsizlik qüvvələrinin əməkdaşıdır.

## İraqın şimalında İŞİD-in 12 terrorçusu yaxalandı



İraq təhlükəsizlik qüvvələri Kərkük şəhərində İŞİD-in 12 üzvünü saxlamışlar. İŞİD-çilər terror aktı hazırlayırmışlar. Bu barədə "Anadolu" agentliyinə yerli polisin nümayəndəsi Məən Səidi məlumat vermişdir. O bildirmişdir ki, Kərkükün cənubunda keçirilmiş iki xüsusi əməliyyat nəticəsində terrorçular tutulmuş, habelə silah və döyüş sursatı müsadirə edilmişdir.

Məlum olduğu kimi, 2014-2017-ci illərdə İŞİD terrorçuları İraqda xeyli ərazini ələ keçirmişdilər. Onlar mütəmadi olaraq insan hüquqlarını pozmuş, hərbi cinayətlər, habelə insanlığa qarşı cinayətlər törətmişlər.

Ötən ilin dekabrında İraqın Baş naziri Heydər İbadi ölkənin İŞİD terrorçularından tamamilə təmizləndiyini elan etsə də, ekstremistlər terror aktları, hücumlar həyata keçirməkdə və adamları oğurlamaqda davam edirlər.

*Təkrar*

## "Bakı Metropoliteni" QSC struktur bölmələrində havalandırma, santexnika, tamamlama və digər işlərin satın alınması üzrə *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Zakir Hacıyev; telefon: 490-00-91) ala bilərlər.

**LOT-1.** "Bakı Metropoliteni" QSC struktur bölmələrində havalandırma, santexnika, tamamlama və digər işlərin satın alınması

**İştirak haqqı - 200 manat**
**Hesabın adı: "BAKI METROPOLITENI" QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: "AZƏRTÜRK BANK" ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **28 dekabr 2018-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **10 yanvar 2019-cu il saat 17:00-a** qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına, "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **11 yanvar 2019-cu il saat 16:30-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Mərkəzi Bankında "Rəqəmsal ödənişlərin genişləndirilməsi məqsədilə zəruri təbliğat və təşviqat materiallarının hazırlanması və kampaniyanın keçirilməsi üçün reklam agentinin seçilməsi üzrə keçirilən açıq tender"in nəticələrinə dair

**ELAN**

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən "Rəqəmsal ödənişlərin genişləndirilməsi məqsədilə zəruri təbliğat və təşviqat materiallarının hazırlanması və kampaniyanın keçirilməsi üçün reklam agentinin seçilməsi üzrə elan edilmiş açıq tenderdə "Red Komyunikeyşns" MMC şirkəti qalib elan edilmişdir.

Qalib şirkətlə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Mətbəə və çap işləri üzrə *tender elanı*

1. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası mətbəə və çap işlərinə dair açıq tender keçirir.

Tender proseduru **24 yanvar 2019-ci il** tarixdə saat **11:00-da** Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasında (Bakı şəhəri, Bülbül prospekti, 27) keçiriləcəkdir.

2. Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və reyestrdən çıxarış) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında - zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *son bir ili əhatə edən maliyyə dövriyyəsini əks etdirən bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi və digər müvafiq orqanlardan arayış;*
- *iddiaçının müvafiq fəaliyyəti sahəsində ən azı bir il təcrübəsinin olmasını və bu sahədə korporativ müştərilərə göstərilən xidmətlər haqqında məlumatları əks etdirən sənəd;*
- *ən azı iki korporativ müştəri tərəfindən verilən tövsiyə məktubu.*

3. İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 23 yanvar 2019-cu il saat 17:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 15 yanvar 2018-ci il saat 17:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

4. İştirak haqqı **300** manat təşkil edir və tenderin nəticələrindən asılı olmayaraq geri qaytarılmır. Tenderdə iştirak haqqı Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının aşağıdakı hesabına köçürülməlidir:

**Bank: ASC "XalqBank"ın "Sahil" filialı**
**Bank VÖEN: 2000296061**
**Müxbir hesab: AZ24NABZ01350100000000067944**
**Kod: 510675**
**SWIFT: HAJCAZ 22**
**İBAN: AZ92HAJCNCRAZN00900071310001**
**VÖEN: 1403372311**

5. Xidmətin göstərilməsinə başlanma vaxtı: 15.02.2019-cu il tarixdən.

Xidmətin göstərilməsi müddəti: **12 ay.**

6. Tenderdə iştirak etmək istəyən şirkətlər iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər. Tender üzrə əlaqələndirici şəxs: Təminat və satınalmalar sektorunun əməkdaşı Ələmqulu Quliyev (alamgulu.guluyev@fimsa.az, Tel: 493-50-58, daxili: 346. Fax: 498-12-14).

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi nazir müavini Niyazi Səfərova əzizi

**SÜRƏYYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Yalçın Əzizova əzizi

**ƏLİZADƏ SEYFULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisi Aparatı İnzibati və hərbi qanunvericilik şöbəsinin müdir müavini Səyyad Kərimov və şöbənin əməkdaşları: Eldar Əsgərov, Elmir Vəliyev, Ziya Səmədov, Tamerlan Şeyxzamanov, Ramin Cəlilov, Lalə Baloğlanova, Elnur Nuriyev, Kəmalə Paşayeva, Tural Tağıyev, Elçin İsmayıl, Mahir Süleymanlı və Mətanət Qənbərova həmin şöbənin müdiri Nizami Səfərova əzizi

**SÜRƏYYA QASIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Zaur Fətizadəyə anası

**ZİNAİDA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi I uşaq xəstəlikləri kafedrasının professoru

**SÜRƏYYA QASIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin kollektivi iş yoldaşları Emil Əsədzadəyə atası

**ASİF ƏSƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun rəhbərliyi və kollektivi nazir müavini Niyazi Səfərova əzizi

**SÜRƏYYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8512
Sifariş 3720